## Güclü qara qarşı hazırlıq araşdırılıb

Bakıda müşavirələr keçirilib



Bakı Şəhər İcra Hakimiyyətinin tapşırıqlarına uyğun olaraq paytaxt rayonlarında qışa hazırlığın vəziyyəti ilə bağlı şəhərin rayonlarında kommunal, təsərrüfat xidmətləri, idarə və təşkilatlarının, təhsil müəssisələrinin, özəl sektorun nümayəndələrinin iştirakı ilə müşavirələr keçirilir.

(səh.2)



## Yol çökdü

Şamaxıda sürüşmə zonaları aktivləşib

**Son günlər yağan yağışlar səbəbindən Şamaxıda sürüşmə zonaları aktivləşib.**

Uzunluğu 16 kilometr olan Çuxuryurd-Sis-Qaleybuğurd-Keçməddin-Qaladərəsi avtomobil yolunda çökmə baş verib.

(səh.4)


№ 216 (6217) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 27 noyabr 2024-cü il (çərşənbə)




## Rusiyada yaşayan azərbaycanlıların işi çətinləşir

Rus dilini bilməyən uşaqların məktəblərə qəbulu qadağan ediləcək

**Rusiya Dövlət Duması rus dilini bilməyən uşaqların məktəblərə qəbulunu qadağan edəcək.**

Bu barədə dövlət duması məlumat yayıb.

Dövlət Duması rus dilini bilməyən miqrant uşaqlarının məktəbə qəbulunu qadağan edən qanun layihəsinə baxmağa başlayıb. Bunu Dövlət Dumasının sədri Vyaçeslav Volodin deyib. O qeyd edib ki, qanun layihəsi uşağın və onun valideynlərinin Rusiya Federasiyasının ərazisində olmasının qanuniliyinin, habelə miqrant uşaqları məktəblərə qəbul zamanı rus dilini bilmə səviyyəsinin məcburi yoxlanılmasını nəzərdə tutur. (milli.az) Qanun layihəsinə birinci oxunuşda dekabrın 10-da baxılması planlaşdırılır.



## Bu gün bələdiyyə seçkilərinin tarixi elan ediləcək

**Bu gün Azərbaycanda növbəti bələdiyyə seçkilərinin keçiriləcəyi tarix açıqlanacaq.**

Bununla bağlı Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov qurumun dünən keçirilən iclasında bildirib.

O bildirib ki, bununla bağlı MSK-nın iclası keçiriləcək.

Xatırladaq ki, Seçki Məcəlləsinin tələblərinə əsasən bələdiyyə seçkiləri Mərkəzi Seçki Komissiyası tərəfindən təyin edilir. Bununla əlaqədar müvafiq qərar səsvermə gününə azı 60 gün qalmış rəsmi dərc olunur. Digər seçkilərdən fərqli olaraq bələdiyyə seçkilərini Mərkəzi Seçki Komissiyası elan edir. Bu seçkilər hər 5 ildən bir keçirilir. Sonuncu bələdiyyə seçkiləri 2019-cu ildə keçirilib.

## Azərbaycanla Ermənistan arasında sülh sazişi vacibdir

Yaşar Güler: “Bu anlaşma Qafqaz regionunda sabitliyi təmin edəcək”



**Azərbaycanla Ermənistan arasında sülh sazişi Qafqaz regionunda sakitliyi və sabitliyi təmin edəcək.**

Bunu Türkiyənin milli müdafiə naziri Yaşar Güler parlamentin plan-büdcə komissiyasında Milli Müdafiə Nazirliyinin 2025-ci il büdcəsinin müzakirəsi zamanı deyib.

O, Bakı ilə İrəvan arasında genişmiqyaslı sülh sazişinin imzalanmasının vacibliyini vurğulayıb.

(səh.2)

# Gözləntilər böyükdür

ABŞ-Azərbaycan münasibətlərində yeni səhifə açılır





**Prezident İlham Əliyev noyabrın 25-də Amerika Birləşmiş Ştatlarının rəhbəri Donald Trampa zəng edib.**

Telefon danışığı əsnasında dövlətimizin başçısı Donald Trampı Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib. Azərbaycan Prezidenti qeyd edib ki, seçkilərdə inamlı qələbə Amerika xalqının onun yürütdüyü siyasi xəttə böyük dəstək və etimadın aşkar ifadəsidir.

Dövlət başçısı vurğulayıb ki, Prezident Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynayacaq. Birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvarlığını bildirib. Prezident Donald Tramp öz növbəsində səmimi təbriklərə görə dövlət başçısı İlham Əliyevə dərin təşəkkürünü bildirib.

(səh.2)

# Sülh və Zəngəzur dəhlizinin taleyi həll olunur

**İbrahim Tellioğlu:** “Əgər Paşinyan erməni diasporu ilə mübarizədən qalib çıxmasa, heç nə dəyişməyəcək”





**Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanla sülh prosesi barədə yenə nikbin danışıb. Paşinyan deyib ki, Ermənistanla Azərbaycan arasında danışıqlar prosesində müəyyən müsbət irəliləyişlər var.**

Baş nazir əlavə edib ki, ilin sonuna qədər sülh müqaviləsinin imzalanması üçün hər şeyə hazırdır. Paşinyan hətta onu da söyləyib ki, sülh sazişi imzalandıqda İrəvan qarşılıqlı formada beynəlxalq məhkəmə iddialarından vaz keçməyə hazırdır.

(səh.3)



## Əvvələ geniş təhlil aparılmalıdır

Məktəblərin bağlanması çox həssas məsələdir

**Millət vəkili deputat Ceyhun Məmmədov 2025-ci il üçün büdcə zərfinin müzakirəsi zamanı bağlanma təhlükəsi ilə üz-üzə olan məktəblərin bağlanmasının əleyhinə olduğunu bildirib:**

"Rəsmi rəqəmlərə görə, təxminən 4400 məktəbdən 1500-nün bağlanması planlaşdırılır. Vəsaitin lazım olduğunu başa düşürəm, amma məktəblərin bağlanması o ərazilərin boşalmasına gətirib çıxaracaq".

Deputat, həmçinin bölgələrdə yeni iş yerlərinin açılması məsələsinə də daha çox diqqət ayrılmasını təklif edib...

(səh.5)

## “Qarabağ" - "Lion" oyununu serbiyalı hakimlər idarə edəcək



**UEFA Avropa Liqasının əsas mərhələsində Bakıda ”Qarabağ” ilə Fransanın ”Lion” komandası arasında keçiriləcək IV tur oyununa təyinatlar açıqlanıb.**

Apasport.az xəbər verir ki, qarşılaşmanı Serbiyadan olan hakimlər briqadası idarə edəcək.

Matçın baş hakimi Nenad Minakoviç olacaq. Ona yan xətt hakimləri Nikola Boroviç və Boşko Bojoviç kömək edəcəklər. Dördüncü hakim funksiyasını Milan Mitiç yerinə yetirəcək.

VAR hakimi Momçilo Markoviç, onun köməkçisi isə Novak Simoviç olacaq.

*Qeyd edək ki, noyabrın 28-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək "Qarabağ" - "Lion" matçı saat 21:45-də başlayacaq.*

## Yasamalda məktəbli 3-cü mərtəbədən özünü atıb

Onun vəziyyətinin ağır olduğu bildirilir



**Yasamalda 14 yaşlı qız intihara cəhd edib.**

Bakupost.az-ın əldə etdiyi məlumata görə, N.B. özünü yaşadığı binanın 3-cü mərtəbəsindən atıb.

Yeniyetmə dərhal xəstəxanaya çatdırılıb və hazırda 1 saylı Kliniki Tibbi Mərkəzdə həkimlərin nəzarəti altındadır.

Onun vəziyyətinin ağır olduğu bildirilir.



## ABŞ-nin Cənubi Qafqaz siyasəti dəyişəcək

Tramp administrasiyası Azərbaycan ilə əlaqələrin inkişafına xüsusi diqqət yetirəcək

(səh.3)



## Yaşlı əhali artır, gənclərin sayı isə azalmaqdadır

Millət vəkili acınacaqlı durumu doğum faizinin aşağı düşməsi ilə əlaqələndirir

(səh.5)



# Gözləntilər böyükdür

## ABŞ-Azərbaycan münasibətlərində yeni səhifə açılır

**Prezident İlham Əliyev noyabrın 25-də Amerika Birləşmiş Ştatlarının rəhbəri Donald Trampa zəng edib. Telefon danışığı əsnasında dövlətimizin başçısı Donald Trampı Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib. Azərbaycan Prezidenti qeyd edib ki, seçkilərdə inamlı qələbə Amerika xalqının onun yürütdüyü siyasi xəttə böyük dəstək və etimadın aşkar ifadəsidir.**

Dövlət başçısı vurğulayıb ki, Prezident Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynayacaq. Birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvarlığını bildirib. Prezident Donald Tramp öz növbəsində səmimi təbriklərə görə dövlət başçısı İlham Əliyevə dərin təşəkkürünü bildirib. Donald Tramp ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə birgə səylərlə çalışmağın vacibliyini bildirib.

**Millət vəkili Hikmət Babaoğlu "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan Prezidentinin Amerika Birləşmiş Ştatlarının yeni seçilmiş Prezidenti Donald Trampla telefon danışığında bir sıra məsələlərə xüsusi diqqət çəkməsi regional və beynəlxalq münasibətlər baxımından mühüm əhəmiyyət kəsb edir. Deputat vurğulayıb ki, Prezidentin hər şeydən öncə ABŞ-də böyük səs çoxluğu ilə Donald Trampın yenidən prezident seçilməyini vurğulaması ayrıca bir məsələdir:** "Amerika demokratiyası nümayəndəli demokratiya olduğu üçün bəzi hallarda səs çoxluğunu özündə əks etdirmir. Yəni daha az səs ala bilən namizəd məhz nümayəndə kollegiyalarının səsi ilə prezident seçilə bilər. Ancaq bu dəfə keçirilən prezident seçkilərində həm səs çoxluğu, həm də nümayəndə kollegiyalarının səsi ilə ABŞ-nin yeni prezidenti seçildi. Bu, mühüm demokratik hadisə kimi yadda qaldı. Digər məsələ Azərbaycan Prezidentinin toxunduğu beynəlxalq münasibətlərin hazırda mövcud vəziyyəti ilə əlaqədardır. ABŞ rəhbəri ilə telefon danışığı zamanı dövlət başçısı qeyd etdi ki, Trampın prezident seçilməsi beynəlxalq münasibətlər sistemində sülhün bərqərar olunmasına gətirib çıxara bilər. Doğrudan da, hazırda beynəlxalq münasibətlərdə çox gərgin mərhələdən keçməkdəyik və Amerika Birləşmiş Ştatları kimi mühüm bir dövlətin davranışları çox böyük əhəmiyyət kəsb edir. Donald

### Beynəlxalq münasibətlərdə gərginliyin aradan qaldırılması istiqamətində Tramp müəyyən addımlar atıb

Trampın bundan əvvəlki prezidentliyi dövründə alınan qərarlara diqqət etsək, görəcəyik ki, beynəlxalq münasibətlərdə gərginliyin aradan qaldırılması istiqamətində Tramp müəyyən addımlar atıb. Bu da öz nəticələrini verib. Prezidentin ifadə etdiyi fikirlərdə gözləntinin bundan ibarət olduğuna dair xüsusi vurğu var idi".

Parlament üzvü qeyd edib ki, mühüm məqamlardan biri Azərbaycan Prezidentinin ABŞ-Azərbaycan münasibətlərinə diqqət çəkməsi və Trampın prezidentliyi dövründə bu münasibətlərdə yeni səhifə açıldığını vurğulamasıdır: "Donald Trampın dövründə Azərbaycanla əməkdaşlığın yeni mərhələsinə qədəm qoyuldu. Hazırkı şərtlər daxilində hər iki ölkənin münasibətləri istiləşmə istiqamətindədir. Trampın hakimiyyəti dövründə ABŞ-Azərbaycan münasibətləri inkişaf üçün yeni perspektivlər əldə edib".

**Politoloq Turan Rzayev "Şərq"ə açıqlamasında deyib ki, telefon zəngi təbrik məqsədli olsa da, bir sıra məqamlar diqqət çəkir:** "Dövlət başçısı vurğulayıb ki, Prezident Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynayacaq. Tramp Baydendən fərqli olaraq emosional, lakin praqmatik siyasətçidir. ABŞ-nin fərqli regionlardakı varlığını gərəksiz hesab edir. Əslində, həm də buna görə onun prezident seçilməsinin bir çox münaqişələrin tənzimlənməsi ilə nəticələnəcəyi düşünülür. Rəsmi Bakı Trampın hakimiyyəti dövründə Qarabağ problemini böyük ölçüdə həll etdi. Təsadüfi deyil ki, erməni lobbisi əsasən buna görə Baydeni dəstəkləyir. Azərbaycan tərəfi Trampın hakimiyyətə gəlməsi fonunda Ermənistanla ikili danışıqların effketiv olacağını və prosesə kənar təsirlərin azalacağını düşünür. Başqa sözlə desək, sülh müqaviləsinin imzalanmasını daha real görür. Təcrübə göstərir ki, kənar təsirlər olmasa, Ermənistanla uzlaşma əldə etmək mümkündür. Birinci prezidentlik dövründə Azərbaycanla Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlət başçısı ikitərəfli əlaqələrin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvar olduğunu bildirib".

**Rəsmi Bakı ilə Vaşinqton arasındakı münasibətlərin enişli-yoxuşlu olduğunu vurğulayan politoloq deyib ki, Co Baydenin hakimiyyəti dövründə ABŞ Azərbaycanla başda enerji sahəsi olmaqla, bir çox istiqamətdə əməkdaşlıqda maraqlı olduğunu desə də, hədə və təhdid ritorikası ilə danışmaqdan vaz keçmirdi:** "Həmçinin Rusiyanın Cənubi Qafqazda təsirini zəiflətmək və Ermənistanda nüfuz qazanmaq üçün İrəvanla Bakını qarşı-qarşıya gətirən situasiyalar yaradırdı.

Azərbaycan Prezidentinin təbrik mesajında qeyd etdiyi məqamlar D.Tramp dövründə Bakı-Vaşinqton münasibətlərinin normallaşması, hətta inkişafına olan inamın göstəricisidir. Azərbaycanla ABŞ bir çox sahədə əməkdaşlıq edir və yeni perspektivlər var. Avropanın enerji təminatı kimi məsələlərdə Bakı ən etibarlı tərəfdaşdır. Xüsusilə Azərbaycanın İran-İsrail, Türkiyə-İsrail, ABŞ-Rusiya, Ukrayna-Rusiya, ABŞ-Çin kimi tandemlərdə balans yaratmaq ustalığı Vaşinqton üçün Bakını əvəzsiz edir. Nəticə etibarilə Trampın hakimiyyəti dövründə fors-major hadisə baş verməsə, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalana bilər. Bundan başqa, regional aktor kimi Bakının çəkisinin artması gözlənilləndir. Həmçinin Azərbaycan ABŞ ilə münasibətləri normallaşdırmağa nail olsa, Avropaya nəql edilən təbii qaz və nəql ediləcək yaşıl enerji artırıla bilər".

**İsmayıl Qocayev,**
**Şəymən Bayramova**

# "Politico" dezinformasiya yayır

## Hikmət Hacıyev: "Azərbaycan 2024-cü ildə Rusiyadan qaz idxal etməyib"



**Təəssüf edirəm ki, "POLITICO Europe" Azərbaycandan üzr istəmək və saxta xəbər məqaləsini geri götürmək əvəzinə, Avropa və dünya ictimaiyyətini çaşdırmaq üçün dezinformasiyalar yaymağa davam edir.**

Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" platformasında "Politico"da dərc edilmiş məqaləyə münasibət bildirərkən qeyd edib.

O, Azərbaycanın 2024-cü ildə Rusiyadan qaz idxal etmədiyini, məqalədə qeyd edilən faktın isə svop əməliyyatı olduğunu vurğulayıb.

""Politico"nun məqaləsində Azərbaycan mediasına istinadən "Azərbaycan bu il Rusiyadan 141,6 milyon kubmetr qaz idxal etdiyini" göstərən rəsmi məlumatlara yer verilib. Qeyd etdiyiniz fakt idxal deyil, svop əməliyyatıdır. Qonşu dövlətlər arasında belə mövsümi mübadilələr baş verir və bu, normaldır. Təəssüf edirəm ki, məqalədə mübadilə və idxal arasında fərq qoyulmur", - Hikmət Hacıyev qeyd edib.

Hikmət Hacıyev məqalədə istinad edilən Avropa Komissiyasının enerji məsələləri üzrə nümayəndəsi Tim MakFinin fikirlərinin dəqiq olduğunu, Avropa bazarlarına təbii qaz tədarük edən Cənub Qaz Dəhlizinin yalnız Azərbaycanın qaz yataqları ilə əlaqəli olduğu, Azərbaycanın daha geniş təbii qaz sistemi ilə əlaqəli olmadığını vurğulayıb: "Aİ rəsmisinin bəyanatı tamamilə doğrudur və biz bununla tam razıyıq. Ona görə də Azərbaycan 2024-cü ildə Rusiyadan heç bir qaz idxal etməyib".

# Azərbaycanla Ermənistan arasında sülh sazişi vacibdir

## Yaşar Güler: "Bu anlaşma Qafqaz regionunda sabitliyi təmin edəcək"

**Azərbaycanla Ermənistan arasında sülh sazişi Qafqaz regionunda sakitliyi və sabitliyi təmin edəcək.**



Azərtac xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Yaşar Güler parlamentin plan-büdcə komissiyasında Milli Müdafiə Nazirliyinin 2025-ci il büdcəsinin müzakirəsi zamanı deyib.

O, Bakı ilə İrəvan arasında genişmiqyaslı sülh sazişinin imzalanmasının vacibliyini vurğulayıb.

Milli müdafiə naziri terrorla mübarizədə əldə olunan uğurlar barədə də məlumat verib. O qeyd edib ki, Türkiyə Silahlı Qüvvələrinin antiterror əməliyyatları çərçivəsində təkcə bu ilin əvvəlindən regionda fəaliyyəti qadağan edilmiş təşkilatların 2654 silahlısı zərərsizləşdirilib.

Nazirin sözlərinə görə, son illər Türkiyə ordusu terrorla mübarizə strategiyasını dəyişib. "Hədəflərin dəqiq müəyyən edilmiş siyahısı ilə qısamüddətli zərbələr əvvəlcədən müəyyən edilmiş müddətlər olmadan genişmiqyaslı əməliyyatlarla əvəzlənib. Belə bir strategiya terror təşkilatlarına, xüsusilə də PKK-ya güclü zərbə vurmağa imkan verdi", -deyən Y. Güler Türkiyəyə qarşı terror təhlükəsini tamamilə aradan qaldırmaq əzmini də vurğulayıb.

Türkiyəli nazir terrorizmlə mübarizədə region ölkələri arasında əməkdaşlığın vacibliyinə diqqət çəkərək bildirib ki, İraq hökuməti ilə əldə olunmuş razılaşmalara əsasən, bu sahədə konkret addımlar atılır.

Kiprdəki vəziyyətə gəlincə, Yaşar Güler qeyd edib ki, Ankara "adanın yunan icmasının sabitliyi təhdid edən hərəkətlərini" diqqətlə izləyir.

Nazir əlavə edib ki, Türkiyə "humanitar fəaliyyət bəhanəsi ilə Kiprin cənubunda xarici dövlətlərin fəallığının artmasını" müşahidə edir.

# Böyük güclər iqlim məsuliyyətindən qaçırlar

## Dünyanı yaxın illərdə böyük fəlakətlər bürüyərsə, bunun səbəbkarı irəlidə olan inkişaf etmiş Qərb dövlətləri olacaq

**COP29 ərəfəsində dünya ABŞ və Avropa İttifaqının, Qərbin məsuliyyətdən yayınmaq üçün məsələni siyasiləşdirmək, yeni maliyyə hədəfinin müəyyən edilməməsi üçün süni maneələr yaratmaq cəhdlərinin şahidi oldu. Əfsuslar olsun ki, ABŞ Prezidenti Cozef Bayden Administrasiyası və Aİ rəhbərliyi əlaqəli şəkildə müzakirələri hədəfdən yayındırmaq yolunu tutdular.**




Bayden administrasiyası ümumiyyətlə yeni prezident seçilmiş D.Trampa mümkün qədər çox problem saxlayıb getmək yolunu tutub. Maliyyə hədəfinin müəyyən olunması prosesinin gərgin keçməsinin əsas səbəbkarı Avropa İttifaqı və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayendir. O, Bayden Administrasiyası ilə razılaşdırılmış şəkildə Avropa İttifaqının iqlim dəyişikliyinə qarşı mübarizə məqsədlərinə mümkün qədər az vəsait ayrılmasının qərarlaşdırıldığını bilirdi və məhz buna görə Bakıya gəlmədi. Təsadüfi deyil ki, COP29-da Aİ-ni təmsil edən, artıq neçənci gündür Bakıda olan Almaniyanın xarici işlər naziri Annalena Berbok iqlim məsələləri ilə məşğul olmaq əvəzinə mətbuat konfransı keçirib Azərbaycanda insan haqlarından danışdı. Azərbaycan müxalifəti və Qərbin buradakı şəbəkə fəalları ilə görüşlər keçirdi. Sonuncu gün COP29-un müzakirələri zamanı isə yalnız gərginlik yaratmaqla məşğul oldu. Ancaq beynəlxalq ictimaiyyətin təzyiqləri qarşısında aparıcı Qərb dövlətləri güzəştə getməli oldular. Digər tərəfdən, inkişaf etməkdə olan ölkələr də kompromisə getdilər. Bu tarixi razılaşma məhz Bakıda əldə olundu. COP29-da 300 mlrd. dollar maliyyə hədəfi həqiqətən tarixi nailiyyətdir və qarşıdan gələn dövrdə bu məbləğin daha da artırılması üçün zəmin yaradıldı. Bütün maneçiliklərə baxmayaraq, Azərbaycanın ev sahibliyi ilə keçirilən COP29 həm təşkilatçılıq, həm iştirak, həm də əldə olunan nəticələrə görə tarixi tədbir oldu. İqlim dəyişikliyi ilə mübarizəyə önəmli töhfələri ilə yadda qalacaq.

Azərbaycana qarşı hibrid müharibəni xatırladan bu hücum kampaniyası nəticə vermədi. Bakı COP29-a ləyaqətlə ev sahibliyi etdi və üzərinə düşən öhdəlikləri tam şəkildə yerinə yetirməklə bəşəriyyətin xilasına mühüm töhfə verdi. COP29-da gözlənilən nəticənin əldə edilməməsi isə Qərb ölkələrinin öhdəliklərindən qaçması və prosesi pozmağa hesablanmış təxribat fəaliyyətlərindən qaynaqlanır.

**Siyasi şərhçi Azər Həsrət "Şərq"ə açıqlamasında deyib ki, çox təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Qərbin aparıcı inkişaf etmiş qüdrətli dövlətləri bəşəriyyətin xilas edilməsi üçün üzərlərinə düşən vəzifənin icrasından hər vəchlə yayınmağa çalışır. Analitik bildirib ki, Qərbin məsuliyyətdən qaçması nəticə etibarilə təkcə kasıb, imkansız dövlətləri və xalqları deyil, bütün yer kürəsini vuracaq:** "Yəni bu, böyük bir məsuliyyətsizlikdir. Onlar qüdrətli, daha güclü ola bilərlər, amma Yer kürəsini mütləq və mütləq birlikdə xilas etməliyik. Çünki həqiqətən də, dünya elə bir mərhələyə gəlib çatıb ki, burada hamımız əl-ələ verməsək, böyükdən kiçiyə Yer kürəsini xilas edə bilməyəcəyik. İqlim dəyişikliyi çox böyük fəsadlara səbəb olacaq. Çox dəhşətli qırğınlara, ölümlərə, təbiətin məhv olmasına, ümumiyyətlə, Yer kürəsinin acınacaqlı duruma düşməsinə səbəb olacaq. Yəni belə bir şəraitdə inkişaf etmiş Qərb dövlətləri təkbaşına xilas ola biləcəklərmi? Təbii ki, ola bilməyəcəklər. Bu, hamımızın içində olduğumuz bir gəmidir. Bu gəminin hansısa bir hissəsindən deşik açılıb su alırsa, o suyun qarşısını kəsmək böyüklü-kiçikli hamının borcudur".

**A.Həsrət vurğulayıb ki, təəssüflər olsun ki, Qərb dövlətləri, xüsusən də insan haqlarından, insana yüksək dəyərdən danışan Qərb dövlətləri bu məsuliyyətin altından qaçırlar:** "Əlbəttə ki, Azərbaycan kimi nisbətən kiçik ölkələr üzərinə düşəndən artığını yerinə yetirir, yetirməyə hazırdır. Amma belə bir şəraitdə pulu, var-dövləti başından aşan, həqiqətən də, böyük məbləğləri mənasız işlərə xərcləyən Qərb dövlətləri yaxalarını kənara çəkirlər. Əlbəttə ki, bu, bəşəriyyətin başına gələcək bəlaların anonsudur. Dünyanı yaxın illərdə böyük fəlakətlər bürüyərsə, bunun səbəbkarı irəlidə olan inkişaf etmiş Qərb dövlətləri olacaq. Ona görə düşünürəm ki, dünya dövlətləri yığışıb BMT platformasında daha ciddi qərarların alınması üçün hərəkətə keçməlidir. Yəni Qərb dövlətləri məcbur edilməlidir ki, o qazandıqları böyük pullardan dünyanın xilası üçün xərcləsinlər. Hələ nəzərə almaq lazımdır ki, o pulların böyük əksəriyyətini də onlar talançılıq müstəmləkəçilik hesabına qazanıblar və ona görə gəlib bu qədər böyük vəsaitlərə sahib olublar, amma dünyanı xilas etmək istəmirlər. Bu məsuliyyət hamımızındır. Ona görə də onların yaxasından heç kim əl çəkməməlidir".

**İsmayıl Qocayev**

# Güclü qara qarşı hazırlıq araşdırılıb

## Bakıda müşavirələr keçirilib

**Bakı Şəhər İcra Hakimiyyətinin tapşırıqlarına uyğun olaraq paytaxt rayonlarında qışa hazırlığın vəziyyəti ilə bağlı şəhərin rayonlarında kommunal, təsərrüfat xidmətləri, idarə və təşkilatlarının, təhsil müəssisələrinin, özəl sektorun nümayəndələrinin iştirakı ilə müşavirələr keçirilir.**



Bu barədə Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, müşavirələrin əsas məqsədi rayon xidmətlərinin soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığın vəziyyətinin araşdırılması, bu zaman görülməsi zəruri olan işlər müzakirə edilib. İlk müşavirələr paytaxtın Sabunçu, Suraxanı və Xətai rayonlarında keçirilib. Müşavirələrdə Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdirləri, şəhərin kommunal və digər xidmətlərinin rəhbərləri də iştirak ediblər. Qeyd edilib ki, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hər bir rayona cavabdeh şəxs təyin edilib, həmin şəxslər yerli İcra Hakimiyyətlərinin nümayəndələri ilə birgə rayonlarda qış mövsümünə hazırlığı, verilən tapşırıqların və görülən işlərin icra vəziyyətini yoxlayıblar.

Bildirilib ki, qış aylarında yağmurlu və şaxtalı hava şəraiti ilə əlaqədar rayon İcra Hakimiyyətlərində qışa hazırlıqla bağlı yaradılan qərargahlar, kommunal və təsərrüfat xidmətləri və aidiyyəti təşkilatların rəhbərləri həmin günlərdə üzərilərinə düşən vəzifələrin tam şəkildə yerinə yetirilməsi üçün hazır olmalıdırlar. Hər bir quruma qarın təmizlənməsi üçün lazımi qədər alət, inventarın (bel, kürək, ling və s.) toplanması, duz ehtiyatı yaradılması, xüsusi texnikaların vəziyyətinin yoxlanılması ilə bağlı tapşırıqlar verilib. Rayondakı küçə və məhəllələrin qardan təmizlənməsinə cavabdeh şəxslərin siyahıları hazırlanıb, bu işlərə kommunal qurumların texnikası ilə yanaşı idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb.

Həmçinin rayonlardakı idarə, təşkilat və özəl qurumlar, bələdiyyələr, o cümlədən ictimai iaşə müəssisələrinin rəhbərlərinə, ictimaiyyət nümayəndələrinə qarlı günlərdə Avropa ölkələrində də qəbul edilən qaydalara uyğun özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak etməyə cağırış edilib.



# Sülh və Zəngəzur dəhlizinin taleyi həll olunur

## İbrahim Tellioğlu: "Əgər Paşinyan erməni diasporu ilə mübarizədən qalib çıxmasa, heç nə dəyişməyəcək"

**Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanla sülh prosesi barədə yenə nikbin danışıb. Paşinyan deyib ki, Ermənistanla Azərbaycan arasında danışıqlar prosesində müəyyən müsbət irəliləyişlər var. Baş nazir əlavə edib ki, ilin sonuna qədər sülh müqaviləsinin imzalanması üçün hər şeyə hazırdır. Paşinyan hətta onu da söyləyib ki, sülh sazişi imzalandıqda İrəvan qarşılıqlı formada beynəlxalq məhkəmə iddialarından vaz keçməyə hazırdır.**

Bəzi ekspertlərə görə, Paşinyanın "ilin sonuna qədər hər şeyə hazıram" sözlərindən belə çıxır ki, o, dekabr ayı ərzində Azərbaycanla sülh sazişini imzalamağa cəhd göstərəcək. Amma məsələ ondadır ki, Ermənistan Konstitusiyasında Azərbaycan və Türkiyəyə ərazi iddialarını ehtiva edən bənd aradan qaldırılmadan sülh sazişinin imzalanması mümkün deyil. Paşinyan və onun komandası isə referendumu növbəti parlament seçkilərindən sonraya saxlayıblar. Yəni Paşinyan sülhlə bağlı tez-tez danışsa da, İrəvan hökuməti bu istiqamətdə konkret və real addımlar atmır.

**Türkiyəli tarixçi-alim, 19 May Universitetinin professoru İbrahim Tellioğlu "Şərq" qəzetinə açıqlamasında deyib ki, 44 günlük Vətən müharibəsindən, qəhrəman Azərbaycan Ordusunun qazandığı böyük Zəfərdən sonra Azərbaycan və Ermənistan arasında bəyannamə imzalandı. Professorun sözlərinə görə, əslində, bu anlaşma ilə Ermənistan dünyanın qəbul etdiyi bir reallığı qəbul etmək məcburiyyətində qaldı:** "Bununla Ermənistan Qarabağın Azərbaycan ərazisi olduğu gerçəyini qəbul etməli oldu. Moskvanın təşəbbüsü və vasitəçiliyi ilə həyata keçirilən görüşlərdə Azərbaycan və Ermənistan arasında sülhün əldə olunması, münasibətlərin normallaşması yönündə bəzi qərarlar alındı. Ancaq əfsuslar ki, bu qərarların tamamən icra olunması mümkün olmadı, yəni prosesi arzuolunan səviyyədə irəliləmədi. Məncə, bu problemin əsas səbəbi Paşinyan hökuməti yox, erməni diasporu və lobbisinin İrəvan hakimiyyəti üzərindəki təzyiqidir. Reallıqda Paşinyan Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmadan Cənubi Qafqazda rahat, firavan və təhlükəsiz şəkildə yaşamağın qeyri-mümkün olduğunu anlayan bir liderdir. O səbəbdən həm Azərbaycan, həm də Türkiyə ilə əlaqələri mümkün mərtəbədə normallaşdırmaq və qarşıdurmanı aradan qaldırmaq istiqamətində cəhd göstərir. Lakin başda Fransadakı erməni lobbisi olmaqla dünyadakı erməni diasporu tərəflərin sülhə yaxınlaşması üçün ciddi təşəbbüslər göstərirlər. Fransanın Azərbaycan əleyhindəki sərt mövqeyi də, əslində, bu məqsədə xidmət edir. Məhz Fransanın Bakı-İrəvan arasında təmaslara, sülh prosesinə yersiz müdaxilə cəhdləri Avropa platformasında keçirilən görüşləri də təxirə salıb".



"Baş nazirin Azərbaycan və Türkiyə ilə əməkdaşlıqda maraqlı və qərarlı olduğu ortadadır"

**İ.Tellioğlu vurğulayıb ki, Nikol Paşinyan ermənilərin bugünədək türk düşmənçiliyi etməsinə səbəb olan məsələlərdə tarixi reallıqları da dilə gətirməyə başlayıb:** "Paşinyan bir neçə dəfə açıq şəkildə "Böyük Ermənistan" ideyasının uydurma, xəyal olduğunu söyləyib. Baş nazir bu uydurma məsələnin ermənilərlə türklər və gürcülər arasında düşmənçilik yaratdığını vurğulayıb. Eyni zamanda 1915-ci il hadisələrinin "soyqırım" olaraq adlandırılmasının tarixi əsasının olmadığını, həqiqəti əks etdirmədiyini bəyan edib. Qondarma "soyqırım" məsələsinə görə, türklərlə münasibətlərin pozulduğunu, düşmənçilik həddinə gəldiyini deyib. Paşinyanın bu etirafları mühüm olmaqla yanaşı, həm də Azərbaycanla sülh prosesində də önəmli addımlardır. Azərbaycan Cənubi Qafqazın inkişaf etmiş, güclü, nüfuzlu ölkəsidir. Paşinyan da Azərbaycanla düşmənçiliyi davam etdirməklə müsbət nəticə əldə etməyəcəyini yaxşı bilir. Dərk edir ki, Ermənistanı siyasi-iqtisadi sahədə irəliyə daşımaq üçün həm Azərbaycanla, həm də Türkiyə ilə münasibətləri normallaşdırmaq şərtdir".

**Tarixçi-alim qeyd edib ki, erməni diasporu modern erməni kimliyinin formalaşmasında mühüm rol oynayan - "Böyük Ermənistan", "Qafqazların qədim mədəniyyəti - ermənilər", o cümlədən qondarma soyqırım kimi iddiaları sürdürməkdə israrlıdır:**

"Bu ideya lobbi dairələrinə dünyadakı bütün erməniləri bir dam altına toplamağa imkan verir. Ona görə də Ermənistanın daxili və xarici siyasətinə müdaxilələr edərək İrəvanı istədiyi istiqamətə yönləndirməyə çalışır. Paşinyan diasporun yönləndirməsi ilə ölkəsinin bölgədə sabitliyə, əmin-amanlığa qovuşmayacağının fərqindədir. Bu səbəbdən özünə və ölkəsinə bir istiqamət müəyyənləşdirib. Paşinyanın erməni diasporundan asılı olmadan Azərbaycan və Türkiyə ilə əməkdaşlıqda maraqlı və qərarlı olduğu ortadadır. Erməni diasporu isə Ermənistana maddi dəstək verməyin qarşılığında İrəvanın həyata keçirdiyi siyasətə müdaxilə edir. Hazırda Paşinyanla erməni lobbisi arasında gərginlik var. Amma Paşinyan arxasındakı xalq dəstəyi ilə öz siyasətini həyata keçirməkdədir. Əgər Paşinyan erməni diasporu ilə mübarizədən qalib çıxarsa, sülhün əldə olunması və Zəngəzur dəhlizinin açılması istiqamətində müsbət nəticələr olacağı şübhəsizdir. Rusiya da bu düşüncədədir. Ancaq mücadiləni erməni diasporu qazanarsa, türk-erməni münasibətləri olduğu kimi gərgin qalacaq və heç nə dəyişməyəcək. Həmçinin Ermənistan regionda pozucu, siyasi çəkisi olmayan, iqtisadi durumu gündən-günə pisləşən ölkə olaraq qalmaqda davam edəcək".

**İsmayıl Qocayev**

# Sakinlərin problemlərinin həllində dönüş olacaq

**Prezident İlham Əliyev yerli özünü idarəetmə orqanı - bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə 2 mühüm dəyişikliyi təsdiqləyib.**

Bunlardan biri "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, digəri isə Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında Azərbaycan Respublikasının Qanunudur.

Bununla da, bələdiyyələrin siyahısında dəyişiklik təsdiqini tapır, "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci və 2-ci maddələrinə uyğun olaraq yeni bələdiyyələr yaradılması təsdiqlənir. Məsələn, Bakı şəhəri, Xəzər rayonu üzrə Mərdəkan və Şağan bələdiyyələrinin əhatə etdiyi Mərdəkan və Şağan qəsəbələrində Mərdəkan bələdiyyəsi yaradılır. Qaradağ rayonu üzrə Çeyildağ, Sanqaçal və Ümid bələdiyyələrinin əhatə etdiyi Çeyildağ, Sanqaçal və Ümid qəsəbələrində Sanqaçal bələdiyyəsi, Korgöz, Qızıldaş və Puta bələdiyyələrinin əhatə etdiyi Korgöz, Qızıldaş, Puta və Şonqar qəsəbələrində Qızıldaş bələdiyyəsi, Pirallahı rayonunda Çilov-Neft Daşları, Gürgən və Pirallahı bələdiyyələrinin əhatə etdiyi Çilov, Gürgən, Neft Daşları və Pirallahı qəsəbələrində Pirallahı bələdiyyəsi, Səbail rayonu üzrə Bibiheybət və Səbail bələdiyyələrinin əhatə etdiyi Səbail rayonunda (Badamdar bələdiyyəsinin ərazisini çıxmaqla) Səbail bələdiyyəsi yaradılır. Ölkəmizin ayrı-ayrı şəhər və bölgələri, həmçinin işğaldan azad edilmiş ərazilər üzrə də yeni yaradılan bələdiyyələrin siyahısı təqdim olunur.

Bələdiyyələrlə bağlı dəyişikliklərin edilməsi çoxdan gözlənilən məsələ idi. Bələdiyyə sisteminin özünü doğrultmadığı da bəllidir. İndiyədək bu mövzuda çox müzakirələr aparılıb, ölkəmizdəki bələdiyyə sistemi ilə qardaş Türkiyədəki bələdiyyə sistemi müqayisə edilib və həmişə də ikinci haqqında müsbət rəylər səslənib. Türkiyədə bələdiyyələr oturuşmuş bir sistemə malikdir və bizdə icra hakimiyyəti strukturunun malik olduğu səlahiyyət və üstünlüklər bələdiyyələrə aiddir. Türkiyədə bələdiyyələr səlahiyyətli bir orqandır. Maliyyə resursları, büdcələri, torpaq sahələri, parkları, istirahət yerləri, qəbiristanlıqları var. Bələdiyyələr geniş, hətta beynəlxalqmiqyaslı tədbirlər keçirir. Yəni qısası, bələdiyyələr şəhərlərin idarə edilməsində aparıcı qüvvədir. Bunu bizim bələdiyyələrlə eyni tərəziyə qoymaq ümumiyyətlə mümkün deyil. İllərdir bizim bələdiyyələrə məzarlıq yeri də heç verilmir. Bələdiyyə işçilərinin qapı-qapı gəzib topladığı əmlak, torpaq vergisi ödənişlərinin hara getdiyini isə "çort znayet". Bələdiyyələrin birləşdirilməsi bu sahədə müsbət dəyişikliyə səbəb olacaqmı?



Yeni bələdiyyələr sıfır borcla fəaliyyətə başlasa, daha arxayın işləmək imkanları yaranacaq

**"Bələdiyyələrin Fəaliyyətinin Təbliği" İctimai Birliyinin sədri Vüqar Tofiqli "Şərq"ə açıqlamasında bildirdi ki, hazırda ölkədə 1606 bələdiyyə var. Yeni qanunla onların sayı 685-ə enəcək:**

- Bələdiyyələrin kəmiyyətində ciddi dəyişiklik baş verir. Bu isə keyfiyyətin yüksəldilməsinə hesablanıb. Bu, bələdiyyəçilikdə optimallaşdırma və stimullaşdırma hesab edilə bilər. 2024-cü ildə Azərbaycanda bələdiyyələrin fəaliyyətə başlamasının 25 ili tamam olur. Ötən müddət ərzində bir çox bələdiyyələr yetərincə diqqət çəkməyi bacarıb. Ümumiyyətlə isə bələdiyyəçiliyin ən böyük uğuru onların özlərini cəmiyyətə tanıda bilməsi olub. O, qeyd edib ki, bələdiyyələrdən narazılıq da var. Amma əsas məsələ odur ki, artıq sakinlər yerli əhəmiyyətli məsələlərin həllində bələdiyyənin rolunu anlayır, bunun üçün vergi verməyi də özünə borc bilir. Bələdiyyələrin birləşdirilməsi, böyüdülməsi onların işində yeni keyfiyyət mərhələsi olacaq. Bələdiyyələrin birləşdirilməsi prosesi sakinlərin problemlərinin həllinə müsbət təsir edəcək. Birləşmə zamanı artıq ləğv ediləcək bələdiyyələrin əməkhaqqı, Dövlət Sosial Müdafiə Fonduna olan borclarının sıfırlanması da yaxşı olardı. Əks təqdirdə yeni qurulacaq bələdiyyələr özlərinə aid olmayan borclarla işə başlamalı olacaqlar, bu da onların işini əngəlləyə bilər. Yeni bələdiyyələr sıfır borcla fəaliyyətə başlasa, daha arxayın işləmək imkanları olacaq.

**Vüqar Tofiqli hesab edir ki, yeni qurulan bələdiyyələrə maliyyə yardımı artırılmalıdır:**

- Çünki belə olacağı təqdirdə onlar daha effektiv iş qura bilər. Eyni zamanda bələdiyyə qanunvericiliyi ilə bağlı boşluqların da aradan qaldırılmasına zərurət var. Bəzən gərəkli qanunlar qəbul edilsə də, onların icra mexanizmi ilə bağlı proses uzadılır və bu da işə əngəl olur. Bələdiyyələrin daha effektiv fəaliyyətinin təmini üçün hüquqi baza yenilənməli, bələdiyyələrin səlahiyyətləri artırılmalı, maliyyə müstəqilliyi təmin edilməlidir. Bunlar olarsa, o zaman bələdiyyə sistemində Türkiyə modelinə keçiddən danışmaq olar.

**Məlahət Rzayeva**

# ABŞ-nin Cənubi Qafqaz siyasəti dəyişəcək

## Tramp administrasiyası Azərbaycan ilə əlaqələrin inkişafına xüsusi diqqət yetirəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa zəng edib. Telefon danışığı əsnasında dövlətimizin başçısı Donald Trampı Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib.**



Azərbaycan Prezidenti qeyd edib ki, seçkilərdə inamlı qələbə Amerika xalqının onun yürütdüyü siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsidir. Dövlətimizin başçısı vurğulayıb ki, Prezident Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynayacaqdır. Birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlətimizin başçısı ikitərəfli əlaqələrimizin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvarlığını bildirib. Prezident Donald Tramp öz növbəsində səmimi təbriklərə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib. Donald Tramp ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə birgə səylərlə çalışmağın vacibliyini qeyd edib.

**Politoloq Aytən Qurbanova "Şərq"ə söyləyib ki, Prezident İlham Əliyev və Donald Tramp arasında olan telefon danışığı bir daha onu göstərir ki, respublikaçıların yenidən hakimiyyətə gəlməsi iki ölkə arasında olan münasibətlərə müsbət istiqamətdə təsir edə bilər:**

"Xüsusilə də, cənab Prezidentin ifadə etdiyi kimi, Trampın birinci prezidentliyi dönəmində iki ölkə arasındakı əlaqələri nəzərdən keçirdikdə, bu istiqamətdə müsbət dəyişikliklərin olacağını ehtimal etmək mümkündür. Düşünürəm ki, Tramp administrasiyasının Cənubi Qafqaz siyasətində Azərbaycan ilə əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi nəzərdə tutulur. Belə olan halda ABŞ-nin yeni xarici siyasət gündəliyində Cənubi Qafqazda sülh və sabitliyin təşviq edilməsi istiqamətində real addımların atılmasının önəmli yer tutduğunu ehtimal etmək olar".

**Şahanə Ziyad**

# Azərbaycanın İranla birgə hərbi təlimlərinin iki hədəfi var

## Birinci məqsəd bu təlimlər vasitəsilə iki ölkə arasındakı sərhəddə narkotik qaçaqmalçılığının qarşısının alınmasıdır

**Azərbaycan və İranın birgə həyata keçirdiyi "Araz-2024" taktiki təliminə hazırlıq prosesi başa çatıb. Bu barədə Müdafiə Nazirliyinin (MN) Mətbuat xidmətindən məlumat verilib.**



Bildirilib ki, Ərdəbil vilayətinin Aslanduz yaşayış məntəqəsi yaxınlığında Azərbaycan Ordusu Quru Qoşunlarının və İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Quru Qoşunlarının xüsusi təyinatlı bölmələri ilə keçirilən "Araz - 2024" birgə taktiki təliminin hazırlıq prosesi yekunlaşıb. Ssenariyə əsasən, şəxsi heyət təlim poliqonunda ərazi ilə tanış olub. Sonra keçirilən iclasda komandirlərin təlim üzrə məruzələri dinlənilib. "Araz-2024" birgə taktiki təliminin növbəti mərhələsinə uyğun olaraq, hər iki ölkənin şəxsi heyəti təlim sahəsində məşqlərin icrasına başlayıb.

**Politoloq Elxan Şahinoğlu "Şərq"ə deyib ki, Azərbaycanın İranla qısa müddət ərzində həm dənizdə, həm də quruda birgə hərbi təlimlərinin iki hədəfi var. Ekspertə görə, birinci məqsəd bu təlimlər vasitəsilə iki ölkə arasındakı sərhəddə narkotik qaçaqmalçılığının qarşısının alınmasıdır**: "Bundan ən çox əziyyət çəkən Azərbaycandır. Ölkəmizdən İran ərazisinə narkotik keçirilməsi faktı yoxdur. İran ərazisindən gizli yollarla Azərbaycan ərazisinə on kiloqramlarla narkotik vasitələr keçirilməyə çalışılır. Narkotik daşıyanlarla Azərbaycan sərhədçiləri arasında atışmalar nəticəsində hərbçilərimiz həlak olub, yaralananlar var. Buna görə də birgə hərbi təlimlər sərhəddə təhlükəsizliyin artırılmasına xidmət etməlidir.

Azərbaycanın İranla birgə hərbi təlimlərinin siyasi əhəmiyyəti də var. İrandakı siyasi, dini və hərbi dairələr Azərbaycanı İsraillə hərbi əməkdaşlığı genişləndirməkdə ittiham edirlər. Halbuki Azərbaycanın İsraillə əməkdaşlığı İrana qarşı yönəlməyib. Azərbaycanın strateji müttəfiqi Türkiyə ilə il ərzində keçirdiyi hərbi təlimlərdən də narahat olanlar var. Azərbaycan İranla birgə hərbi təlimlər keçirməklə Azərbaycandan qonşu ölkəyə təhdid olmayacağını Tehrana anlatmağa çalışır".

**Analitik vurğulayıb ki, Tehranda anlamalıdırlar ki, Azərbaycan Türkiyə, İsrail və NATO ilə hərbi əməkdaşlıqdan imtina etməyəcək:** "Məsələn, Azərbaycan Silahlı Qüvvələri İran Silahlı Qüvvələri ilə birgə təlimlər keçirərkən, NATO nümayəndə heyəti Bakıda idi. Bakıda Azərbaycanın NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulmasının 30 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Görüşlərdə NATO ilə əməkdaşlığın əsas hüquqi bazası hesab olunan "Fərdi uyğunlaşdırılmış tərəfdaşlıq proqramı" (ITPP) layihəsində göstərilən öhdəliklərin icrası ilə bağlı cari vəziyyət və beynəlxalq təhlükəsizlik missiyalarında hərbi qulluqçularımızın iştirakı barədə danışılıb. Azərbaycan NATO-ya üzv olmaq istəmir, ancaq ordumuzun daha da modernləşdirilməsi baxımından Şimali Atlantika Blokunun müxtəlif proqramlarında iştirak ölkəmiz üçün əvvəlkitək faydalıdır".

**İsmayıl**

# Ukraynanın NATO-ya üzv olması qeyri-mümkündür

## Müharibə vəziyyətində olan bir dövlətin alyansa üzv olması əlavə gərginlik yarada bilər



**Ukrayna Baş nazirinin Avropa və Avroatlantik inteqrasiya üzrə müavini, ədliyyə naziri Olqa Stefanişina deyib ki, Ukraynanın AB və NATO-ya üzvlüyü olmadan müharibəyə son qoymaq mümkün deyil.**

Xatırladaq ki, Fransanın xarici işlər naziri Jan-Noel Barro BBC-yə müsahibəsində deyib ki, Fransa Ukraynanı NATO-ya üzv olmağa dəvət etməyə açıqdır və müttəfiqlərini buna inandırmağa çalışır.

**Siyasi analitik Fuad Abbasov "Şərq"ə bildirib ki, Ukraynanın NATO-ya üzv olması qeyri-mümkündür:**

"Çünki müharibə vəziyyətində olan bir dövlətin NATO-ya üzv olması alyansa daxil olan bütün dövlətlərin Rusiyaya qarşı səfərbər olmasına və müharibəyə qoşulmasına səbəb ola bilər. Bu, NATO-nun nizamnaməsi ilə uyğun deyil. Hesab edirəm ki, Ukrayna alyansa daxil edilmək istənsə idi, bu, müharibədən əvvəl olmalıydı. Biz bilirik ki, müharibədən əvvəl də Ukraynanın birliyə daxil edilməsi müzakirə edilsə də, qəbul edilmədi. Bu səbəbdən Avropa ölkələrinin səlahiyyətli şəxslərinin belə açıqlamaları Bayden administrasiyasının hakimiyyətdən getməsinə az qalmış ABŞ resurslarından istifadə etmək üçündür. Çünki biz Trampın keçmişdə "NATO ölkələrini bəsləmək yetərlidir" kimi açıqlamalarından onun bu məsələdəki mövqeyindən xəbərdarıq. Hesab edirəm ki, Ukraynanın NATO-ya daxil olması ilə bağlı fikirlər sadəcə siyasi açıqlamalardır və onun reallaşması mümkün görünmür".

**Yusif Sultanov**



# İmzalanacaq saziş qalıcı olmalıdır

## Ermənistan isə silah və dəstək almaqla əlini daha çox gücləndirməyə çalışır



**Azərbaycan və Ermənistan arasında sülhün imzalanması və münaqişəyə son qoyulması dünyanı maraqlandıran əsas məsələlər sırasındadır.**

İki ölkə arasında dayanıqlı sülhün bərqərar olması və münasibətlərin normallaşması üçün Ermənistan Konstitusiyasında dəyişikliklərin edilməsi, Azərbaycana qarşı ərazi iddiasının ləğv edilməsi zəruri şərtdir. İrəvan hakimiyyəti isə qonşuları ilə normal davranmaq əvəzinə, siyasi manipulyasiyaya və silahlanmağa üz tutmaq yolunda irəliləyir.

**Yıldız Texniki Universiteti (YTU) müəllimi, beynəlxalq strateq və siyasi şərhçi Cemal Zehir "Şərq"ə vurğulayıb ki, BMT Baş Assambleyasının 79-cu sessiyasında Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın görüşməsi gündəmdə idi:**

"Həmin görüş və ondan sonrakı proseslərlə bağlı beynəlxalq ortamdan əldə etdiymiz məlumatdan və vəziyyəti strateji analiz etdiyimiz zaman Azərbaycan-Ermənistan arasında Cənubi Qafqazda sülh görüşü və sərhəd məsələsinin əsas mövzu olduğunu görürük. Azərbaycan ilə Ermənistanı, beynəlxalq dünyanı maraqlandıran ən əsas məsələlərdən biri beynəlxalq əlaqələr və nəqliyyat mövzularıdır. Yəni Azərbaycan-Ermənistan sülhü Çindən başlayan "bir kəmər bir yol" layihəsinin Avropaya doğru uzanmasında ən böyük strateji addımdır. Lakin Azərbaycan və Ermənistan sülh danışıqları bir nəticə vermədən böyük addımlar atıla bilmir. Ermənistan Baş naziri Nikol Paşinyan Azərbaycanla sülhə razı olduğunu tez-tez dilə gətirir. Amma bu sülh sazişinin təməli strateji məsələlərdən əlavə daha çox iki ölkə arasında razılaşdırılan mövzulardan ibarətdir".

**C.Zehir vurğulayıb ki, Azərbaycan və Ermənistan arasında imzalanan razılaşma qalıcı olmalıdır:**

"Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları mövcuddur. Azərbaycan isə buna görə Ermənistandan konstitusiyasını dəyişməsini tələb edir. Ancaq Ermənistan tərəfindən konstitusiya il bağlı heç bir addım atılmayıb. Hazırkı vəziyyətdə bununla bağlı hansısa irəliləyişin olması gözlənilən deyil. Çünki Ermənistan hakimiyyəti bununla bağlı passiv davranır. Ermənistan tərəfindən Zəngəzur dəhlizinin açılması və konstitusiyanın dəyişdirilməsi ilə bağlı müsbət fikirlər söylənilsə də, hələ ki heç bir strateji addım baş tutmayıb. Beləliklə, Ermənistanın sülhdən yan qaçdığı göz önündədir. Ermənistan Amerika Birləşmiş Ştatları və Fransa kimi Qərb ölkələrindən silah və dəstək almaqla əlini daha çox gücləndirir. Yəni Ermənistan sadəcə olaraq sülhü istəyən tərəf olaraq özünü göstərməyə çalışır".

**Şahanə Ziyad**

**"Özünüməşğulluq proqramı ilə kəndçiyə iki dənə inək verirlər, o da qapıdan girəndən üç gün sonra ölür". Bunu Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib. O qeyd edib ki, şəhid ailələri və veteranlara güzəştlərin verilməsi ilə bağlı çoxlu qanunlar, Prezidentin fərmanı, icra hakimiyyətlərinin sərəncamları var:**



# Kənd təsərrüfatı ilə bağlı şikayətlər çoxdur

## Siyavuş Novruzov: "Xəstə mal-heyvanları insanlara verirlər, o da qapıdan girəndən üç gün sonra ölür"

"Nazirlik onların hüquq və imtiyazları ilə bağlı məlumatı portalda yerləşdirsə, şəhid ailələri və müharibə veteranları öz hüquqları barədə məlumatı oradan öyrənə bilərlər. Bundan başqa, özünüməşğulluqla bağlı proqram çox yaxşıdır. Amma proqramın həyata keçirilməsi mexanizmində problemlər var. Başqa sahələri deyə bilmərəm, amma kənd təsərrüfatı ilə bağlı şikayətlər çoxdur. Xəstə mal-heyvanları insanlara verirlər, o da qapıdan girəndən üç gün sonra ölür. Onların da bir dəfə almaq şansı var. Kəndçiyə iki inək verilir, ona bir illik qarantiya da verilir. Heç olmasa, üç aylıq da onun yeməyini verin. Çünki kəndçi onu ehtiyacdan alır. Eyni zamanda müharibə veteranları ilə bağlı müraciətlər olur. Onlar əlilliklə təyinatı almaq üçün müraciət edirlər. Ola bilər, hansısa kompüter, aparat onu göstərə bilmir. Əgər qucağında silahla kozarmada yatmamısansa, bunu dərk edə bilməzsən. 5 dil bilə bilərsən, amma yanında döyüş yoldaşının ölməsi ilə keçirilən psixoloji sarsıntını heç kəs bilə bilməz".

Nazir Sahil Babayev isə cavabında qeyd edib ki, elektron şəkildə hər bir şəhid ailəsinə olan imtiyazlar var: "Bununla bağlı bukletlər də çap olunub. Təqdim olunan heyvanlarla bağlı araşdırılmamış məlumatlar verilməsin. Təqdim olunmuş heyvanlarla bağlı AQTA-nın xəstəlik sağlamlıq arayışları orda olur. Araşdırmamış heç kim heç nə deməsin".

**İsmayıl**

# Bakıda dünyanın ən nəhəng beynəlxalq tədbiri baş tutdu

## COP29 qlobal Şimal və qlobal Cənub arasında körpü rolunu oynadı




**"Azərbaycan Respublikası daha bir uğura imza atdı və bu nailiyyət mahiyyət etibarilə qlobal məzmun kəsb edir".**

**Bu fikirləri "Şərq"ə açıqlamasında millət vəkili Elman Nəsirov söyləyib.**

O bildirib ki, Azərbaycanın paytaxtı Bakıda dünyanın ən nəhəng beynəlxalq tədbiri baş tutdu:

"Sözügedən tədbirdə dünya üçün bir nömrəli təhdid mənbəyi olan iqlim dəyişikliyi ilə bağlı problemlərin həlli istiqamətində çox ciddi addımlar atıldı. Əvvəllər dünya üçün təhdid mənbəyi terror hadisələri olduğu halda hazırda onun yerini ekoloji problemlərin yaratdığı məsələlər alıb. CO29-da Azərbaycanda 80 ölkə prezidenti, vitse-prezidenti, Baş naziri və digər rəsmilər qismində təmsil olunurdu. Son 2 gün ərzində taleyüklü qərarlar qəbul olundu və iqlim dəyişiklikləri ilə bağlı məsələlərin həlli üçün 300 milyard dollar vəsaitin ayrılması haqqında tarixi razılaşma imzalandı. 2035-ci ilə qədər həmin məbləğin 1,3 trilyon dollara qaldırılması nəzərdə tutulur".

**Deputat vurğulayıb ki, indiyə qədər heç bir COP tədbiri bu qədər siyasiləşməmişdi və Azərbaycana edilən qədər heç bir ölkəyə belə təzyiq olunmamışdı:**

"Müxtəlif istiqamətlərdən koordinasiya olunmuş şəkildə ölkəmizə qarşı təzyiq, təhdid, boykot kampaniyası həyata keçirilirdi. Avropa İttifaqı (Aİ) həmin proseslərin önündə gedirdi. Avropa Birliyi Amerika Birləşmiş Ştatlarının erməni lobbisi ilə birgə Azərbaycan əleyhinə yalan dolu fikirlər səsləndirirdilər. COP29-un əsas problemlərini qırağa atıb əllərində lupa ilə Azərbaycanda demokratiya axtarışına çıxmışdılar. Lakin bütün dünya şahidlik etdi ki, Azərbaycan demokratik inkişaf yolunu tutub. Xarici jurnalistlər gördü ki, istənilən məmura yaxınlaşaraq istədikləri bütün suallara cavab tapa bilərlər. Nəticə etibarilə Qərb dairələrinin Azərbaycan əleyhinə qarayaxma kampaniyası fiaskoya uğradı və qələbə Azərbaycanın oldu. COP29 çərçivəsində Prezident İlham Əliyev kiçik ada dövlətlərinin problemlərinin həlli məsələsini gündəmə gətirdi. Çünki Fransa və Niderlandın ada dövlətlərinə qarşı apardığı siyasət qəbuledilməzdir. COP29 qlobal Şimal və qlobal Cənub arasında körpü rolunu oynadı".

**Şahanə Ziyad**

# Regionda yeni müharibə ehtimalı artır

## Aİ Ermənistanda mülki missiya adı ilə Cənubi Qafqazda daha da əsaslı şəkildə oturuşmağı hədəfləyir



**"Gürcüstanda keçirilən seçkilərdə Qərbin Rusiyaya uduzması fonunda Qərbin Cənubi Qafqazla bağlı aqressiv siyasətini daha da gücləndirəcəyi şübhəsiz idi. Qərb-Rusiya qarşıdurmasının Cənubi Qafqaz meydanı Ukrayna cəbhəsindən fərqli olaraq hələ ki siyasi-diplomatik müstəvidə davam etsə də, onun açıq hərbi gərginliyə keçəcəyi ehtimalı da var".**

*Bu barədə "Şərq"ə açıqlamasında siyasi ekspert Vüqar Dadaşov məlumat verib.*

Ekspertin sözlərinə görə, Qərb Cənubi Qafqazla bağlı planlarını Ermənistan üzərindən həyata keçirmək niyyətindədir: "Polşa XİN başçısı Andrey Dudanın İrəvan səfəri heç də ikitərəfli xarakter daşımır. Sözsüz ki, Avropa İttifaqının, Kollektiv Qərbin nümayəndəsi qismində Ermənistana səfər edib. Aİ-nin Ermənistanda missiyası ilin sonunda başa çatmalıdır. Andrey Dudanın Polşanın da Ermənistandakı Aİ-nin missiyasına qoşulma ehtimalını müzakirə etməsi əlbəttə ki, Aİ-nin Ermənistandakı missiyasının uzadılacağını göstərir, hərçənd ki, Polşa missiyaya qoşulmasaydı da, Aİ Ermənistanda mülki missiya adı ilə öz hərbi mövcudluğuna son verən deyildi, əksinə, Cənubi Qafqazda daha da əsaslı şəkildə oturuşmaq hədəfləyir. Ermənistan rəsmilərinin son açıqlamaları isə göstərir ki, regionda yeni müharibə ehtimalı artır. Fransa, Yunanıstan, Hindistan, İran, ABŞ, və digər Qərb dövlətləri Ermənistana açıq hərbi yardımlarının hədəfi təbii ki, Ermənistanın Azərbaycanla yeni müharibəsidir".

Qərb-Rusiya qarşıdurmasının Ukrayna cəbhəsində dərinləşdiyini xatırladan V.Dadaşov bəzi kəşfiyyat məlumatlarına istinadən qeyd edib ki, həm Rusiya, həm də Ukrayna yeni hücum planları hazırlayır: "Kollektiv Qərb artıq Ukraynaya verdiyi ciddi və hücum silahlarından istifadəyə icazə verib. Donald Trampın ABŞ-nin yenidən prezident seçilməsi Co Bayden iqtidarını qısa müddətdə Ukraynada vəziyyəti elə həddə çatdırmamağa məcbur edib ki, geriyə, tərəflər arasında danışıqlar mümkün olmasın. Maraqlısı da odur ki, Rusiya əvvəllər Qərbin Ukraynaya dəstək və ciddi silahlar verəcəyi halda nüvə silahından istifadə edə biləcək ehtimalını dilə gətirirdi. Ancaq Rusiya baş verənlərin əksinə olaraq son vaxtlar nüvə ritorikasından uzaqlaşıb. O ki qaldı İsrailin Yaxın Şərq müharibəsinə, əlbəttə ki, bu müharibəni də geniş mənada Kollektiv Qərbin planlarına uyğun aparır. Qərbin planları İsrail dövlətinin milli maraqları üçün əlverişli imkanlar yaratdığı üçün proses vəhdət formasındadır. Son günlər İsraildən atəşkəsin və razılaşmanın mümkünlüyü barədə anonsun verilməsi təbii ki, uğurlu nəticəyə söykənir, həm də dünya ictimaiyyətinin mövqeyi və Beynəlxalq Məhkəmə qərarları Netanyahu hakimiyyətini loyal davranmağa məcbur edir. Hər bir halda hələ ki bütünlüklə müharibənin bitməsi ehtimalı yoxdur".

**Şəymən Bayramova**

# Səfərlər, görüşlər təbii və normaldır

## Azərbaycan 15 ildən çoxdur ki, NATO sistemi üzərində işləyir




**Azərbaycanın NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulmasının 30 illiyinə həsr olunmuş elmi-praktik konfrans çərçivəsində Alyansın Baş Katibinin əməliyyatlar üzrə köməkçisinin müavini xanım Burcu Sanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.**

Müdafiə Nazirliyinin məlumatına görə, Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi polkovnik Elçin Abdullayev NATO nümayəndə heyəti ilə görüşüb. Görüşdə NATO ilə əməkdaşlığın əsas hüquqi bazası hesab olunan "Fərdi uyğunlaşdırılmış tərəfdaşlıq proqramı" (ITPP) layihəsində göstərilən öhdəliklərin icrası ilə bağlı cari vəziyyət və beynəlxalq təhlükəsizlik missiyalarında hərbi qulluqçularımızın iştirakı barədə danışılıb. Həmçinin Azərbaycan Ordusu tərəfindən NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş müxtəlif qoşun növləri bölmələrinin hazırlığı, Tərəfdaşlığın Qərargah Vəzifəsi Konsepsiyası çərçivəsində Alyansın müxtəlif qərargah və strukturlarında xidmət edən hərbi qulluqçularımızın töhfələri barədə müzakirələr aparılıb. Azərbaycannın NATO yanında Nümayəndəliyinin başçısı Cəfər Hüseynzadənin də iştirak etdiyi görüş zamanı ölkəmizin NATO-nun etibarlı tərəfdaşı olduğu xüsusi vurğulanıb. Əməkdaşlığın gələcək perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

**Beynəlxalq Münasibətlər və Diplomatik Araşdırmalar Mərkəzinin rəhbəri Samir Hümbətov "Şərq"ə deyib ki, Azərbaycan Ordusu artıq bir neçə ildir ki, NATO standartlarına keçib. Ekspertin sözlərinə görə, Azərbaycan 15 ildən çoxdur ki, bu sistem üzərində işləyir:** "Türkiyə ordu sisteminə keçid modelini tətbiq etməklə də NATO standartlarını qəbul etmiş oluruq. Məsələ ondadır ki, Azərbaycanın NATO ilə əməkdaşlığı, tərəfdaşlığı və ordu standartlarının tətbiq olunması ölkəmizin hərbi alyansa üzv olması anlamını daşımır. Bu, birbaşa Azərbaycanın müasir ordu sisteminə keçidi deməkdir. Dünyada hərbi sənaye durmadan inkişaf edir, yeni silahlar ortaya çıxır və əksəriyyəti də NATO ölkələri tərəfindən istehsal olunur. Belə olan halda NATO sistemini öyrənmək və onu tətbiq etmək daha məqsədəuyğundur".

**Analitik diqqətə çatdırıb ki, bu proses Rusiya və İran tərəfindən diqqətlə izlənilsə də, hər bir dövlət öz milli maraqlarından çıxış edir:** "Təbii olaraq Azərbaycan da öz milli maraqlarını güdür. Azərbaycanın hansısa dövlətlə, hərbi, yaxud siyasi blokla əməkdaşılığı qonşu ölkələrə, üçüncü tərəfə qarşı yönəlməyib. Sırf özümüzün milli maraqlarımız və təhlükəsizliyimiz naminə NATO kimi təşkilatlarla qarşılıqlı əməkdaşlıq edirik. O baxımdan belə səfərlər, görüşlər təbii və normaldır. Əldə edilən razılaşmaların icrası da mümkündür. Onsuz da Azərbaycanın Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində NATO ilə əməkdaşlığı var".

**İsmayıl Qocayev**

# Yol çökdü

## Şamaxıda sürüşmə zonaları aktivləşib



**Son günlər yağan yağışlar səbəbindən Şamaxıda sürüşmə zonaları aktivləşib.**

"Report"un Yuxarı Şirvan bürosu xəbər verir ki, uzunluğu 16 kilometr olan Çuxuryurd-Sis-Qaleybuğurd-Keçməddin-Qaladərəsi avtomobil yolunda çökmə baş verib.

Yolun bir neçə hissəsi dağılıb, asfalt örtüyündə çökmələr və yolun ortasında iri çatlar əmələ gəlib. Dörd kəndi birləşdirən, turizm əhəmiyyətli bu yolda üçüncü dəfədir ki, torpaq sürüşməsi baş verir.

Yolun bəzi hissələrində hərəkət zolağı dərəyə doğru sürüşərək dağılıb, yolda 4-5 metr uzunluğunda iri və xırda çatlar əmələ gəlib. Yolun digər tərəfində isə asfalt örtüyü dağılaraq, iri qabarmalar yaranıb.

Sis kəndinə gedən avtomobil yolu da sürüşməyə məruz qalıb. Yolun bir hissəsinin uçması səbəbindən kəndə gediş-gəliş çətinləşib.

19 saylı xüsusi təyinatlı yol istismar MMC-nin baş mühəndisi Kənan Babaşovun sözlərinə görə, hava şəraiti sabitləşəndən sonra ziyan dəymiş ərazilərdə təmir-bərpa işləri görüləcək.

Qeyd edək ki, sürüşmə baş verən ərazi rayon mərkəzindən 22 km aralı məsafədə yerləşir.



# Yaşlı əhali artır, gənclərin sayı isə azalmaqdadır

## Millət vəkili acınacaqlı durumu doğum faizinin aşağı düşməsi ilə əlaqələndirir

**Milli Məclisin payız sessiyası üzrə növbəti plenar iclası keçirilib. Deputatlar "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi ətrafında fikir mübadiləsini davam etdiriblər. Millət vəkili Azər Badamov deyib ki, Qusar şəhərinin yanındakı "Bənövşə gölü" su anbarı Qusar şəhəri və ətraf kəndlərini uzun illər içməli və təsərrüfat suyu ilə təmin edib.**

Deputat bildirib ki, son illər baxımsız qalıb və qurudularaq yararsız hala gətirilib. Dünyada baş verən iqlim dəyişiklikləri şirin su mənbələrinin azalmasına gətirib çıxarır: "Bu baxımdan su anbarlarının tikilməsi və bərpası çox aktual məsələdir. Bütün bunları nəzərə alaraq müvafiq qurumdan Qusar şəhərinin yanında yerləşən "Bənövşə gölü" su anbarının bərpasının diqqətdə saxlanılmasını xahiş edirəm.

**"Ən az maaş alan Daxili İşlər Nazirliyinin əməkdaşlarıdır"**

Parlamentdə xüsusi təyinatlıların və DİN əməkdaşlarının maaşlarının artırılması təklif olunub. Deputat Vüqar İskəndərov deyib ki, büdcə zərfində müdafiə və təhlükəsizlik xərclərinə kifayət qədər vəsait ayrılıb, xüsusi təyinatlı hərbçilərimizin maaşlarını bir neçə dəfə artırmalıyıq: "Təcrübə göstərir ki, müharibədən çıxmış ölkələrdə hərbiyə axın bir neçə dəfə azalır. Maaşların artırılması ilə bu axını stimullaşdırmaq olardı. Bura Daxili İşlər Nazirliyinin əməkdaşlarını da əlavə etməliyik. Çünki ən az maaş alan Daxili İşlər Nazirliyinin əməkdaşlarıdır".

Deputat Əziz Ələkbərli deyib ki, Saatlıda kəndlərin dörddə birinin qazı yoxdur: "Mən hər il büdcə müzakirəsində bu məsələni qaldırıram. Ancaq heç bir irəliləyiş əldə olunmur. "SOCAR-ın prezidentinin bu günlərdə imzaladığı cavab məktubundan aydın oldu ki, 2025-2030-cu illərdə Saatlı rayonunun 11 kəndindən yalnız 1-nə qaz çəkilə bilər. Digər 10 kəndə 2030-a qədər qaz çəkilməyəcək. Bildirilib ki, ölkə ərazisində 399 kəndə qaz çəkilməsi iqtisadi cəhətdən səmərəsizdir. Digər rayonları deyə bilmərəm. Ancaq Saatlı rayonunun qazsız kəndləri hamısı bir-birinin yanındadır. Tam düzənlik ərazidir. Qaz magistral xətləri kəndlərin tam kənarından keçir. Belə olan halda qaz çəkilişi iqtisadi cəhətdən niyə səmərəsizdir? Xahiş edirəm, bu məsələ diqqət mərkəzində saxlanılsın".

Deputat Vüqar İskəndərov deyib ki, Şəkidə insanlar kanalizasiya problemindən narahatdır: "14 ildir ki, bu problem həllini tapmır. Rayonun 69 faizi qazlaşdırılıb, digər ərazilərin də qazlaşmasına ehtiyac var".

**"Azad edilmiş ərazilərin bərpası prioritetdir"**

Deputat Elman Nəsirov deyib ki, azad edilmiş ərazilərin bərpası bu gün prioritet sahədir: "2021-ci ildən bu ilin sonuna qədər bu sahəyə 19 milyard manat ayrılıb. 2025-ci ildə bu istiqamətə 4 milyard manat ayrılacaq. Bunlar vacib məsələlərdir". Elman Nəsirov sərhəd kəndlərin tam qazlaşdırılmasını da təklif edib.

Millət vəkili Fazil Mustafa deyib ki, uşaqların doğumuna görə birdəfəlik müavinət artırılıb: "Amma kateqoriyaları bir az ayırmaq lazımdır. İşsiz, imkanı olmayan şəxslər üçün eyni standart, doğulan uşağa görə 500 manatın verilməsi ədalətli sayılmır. Biz demoqrafik siyasətlə bağlı stimullaşdırıcı addım atmırıq. Bizdə yaşlı əhalinin sayı artır, gənclərin sayı isə azalmaqdadır. Bu da doğum faizinin aşağı düşdüyünə görədir. Hamiləlik və doğuma görə vəsaitin artırılması vacibdir".

**Deputatdan irad - "Estetik cərrahlara icazəni kim verir?"**

Deputat Səyyad Salahlı deyib ki, saytların birində oxuyub ki, estetik cərrah qaynı arvadını əməliyyat edib və vəziyyət dəhşətli dərəcədə faciəli hal alıb: "Həm də qaynı arvadını ikinci dəfədir ki, bu cür ölümcül vəziyyətə düçar edib. Özü də yazılıb ki, bu adamın tibbi təhsili yoxdur. Başa düşmürəm, bu şəxs necə cərrahi əməliyyat aparır?! Buna icazə verilirmi?! Xahiş edirəm, həm səhiyyə naziri, həm də TƏBİB-in rəhbəri bu məsələyə diqqət eləsin".

**"Qərbi azərbaycanlıların yurdlarına qayıdışı Azərbaycan dövlətinin, Ordusunun daha da güclənməsinə bağlıdır"**

Qərbi Azərbaycan İcmasının sədri, deputat Əziz Ələkbərov deyib ki, artıq heç kəs şübhə etmir ki, tarixi ədalət mütləq öz yerini tapacaq və Qərbi azərbaycanlı soydaşlarımız öz ata-baba yurdlarına qayıdacaqlar. Deputat bildirib ki, 2025-ci il dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərclərinin artırılmasını xüsusilə dəstəkləyir: "Çünki nəinki 200 illik tarixi təcrübə, nəinki son 30 ilin və 44 günlük müharibədən sonrakı son 4 ilin dərsləri, hətta Ermənistan rəhbərliyinin son aylardakı və son günlərdəki bütün hərəkətləri sübut edir ki, onlar toplum və dövlət olaraq region ölkələrinə qarşı ərazi iddialarından heç vaxt əl çəkməyiblər və əl çəkən də deyillər. Sülh sazişi ilə bağlı danışıqlar isə onlara silahlanmaqdan və növbəti müharibəyə hazırlaşmaqdan ötrü vaxt qazanmaq üçün lazımdır. Ona görə də Qərbi azərbaycanlı soydaşlarımızın öz ata-baba yurdlarına qayıdışı da məhz Azərbaycan dövlətinin və Azərbaycan ordusunun daha da güclənməsinə bağlıdır. Yəni ermənilərin başı üstündə həmişə dəmir yumruq olmalıdır. Bunu onların antropologiyası, baş quruluşlarının braxikefal, yəni yastıbaş olması da təsdiq edir".

**İsmayıl**

# İsrail istədiyini əldə edə bilmədi

## Gərginliyin zəifləmə ehtimalı olsa da, savaş yaxın zamanda bitəcək kimi görünmür

**Beynəlxalq Cinayət Məhkəməsi İsrailin Baş naziri Benyamin Netanyahu və keçmiş müdafiə naziri Yoav Qallantın "insanlığa qarşı cinayətlər və müharibə cinayətləri" ilə bağlı həbsinə order verib. Netanyahu və onun qətliam şəbəkəsi üçün çəmbər getdikcə daralır.**



"Netanyahuya qarşı İsrail daxilində də müəyyən iddialar gündəmdədir. Ona görə də müəyyən bazarlıqlara gedərək prosesi uzatmağa çalışacaq"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, soyqırımda günahkar olanlar tökdükləri günahsız qanlara görə mütləq cavab verəcəklər. Onun sözlərinə görə, Netanyahu və Qallantın həbsinə orderlərin verilməsi cəsarətli qərardır: "Biz bu qərarı dəstəkləyirik". Bundan əlavə, Ərdoğan vurğulayıb ki, Fələstin məsələsində Türkiyəni haqsız yerə tənqid etmək həssaslıq deyil, pis niyyətin əlamətidir. İranın dini rəhbəri Əli Xamenei də deyib ki, İsrailin Qəzza və Livanda etdikləri qələbə deyil, müharibə cinayətidir: "İndi Netanyahu üçün həbs orderi veriblər, amma bu, kifayət deyil, onun ölüm hökmü verilməlidir".

Avropa İttifaqının (Aİ) xarici və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borrell İsraili Livanda təklif olunan atəşkəs razılaşmasını dəstəkləməyə çağırıb və bildirib ki, bu razılaşma İsrail üçün bütün zəruri təhlükəsizlik təminatlarını özündə birləşdirir. Borrell bunu G7 xarici işlər nazirlərinin görüşündə deyib. O bildirib ki, Hizbullah ilə razılaşmanın həyata keçirilməməsi üçün heç bir bəhanə yoxdur və əlavə edib ki, razılaşmanın bu gün təsdiqlənməsi üçün İsrailə təzyiq göstərilməlidir. Qeyd edək ki, İsrail Baş naziri Benyamin Netanyahu ölkə rəsmiləri ilə təhlükəsizlik məsləhətləşmələri zamanı Hizbullahla əldə olunan atəşkəs razılaşmasını ilkin olaraq təsdiqləyib. Məlumata görə, İsrailin keçmiş müdafiə naziri Yoav Qallant Vaşinqtona getməyi planlaşdırır. Bu, Qallantın Beynəlxalq Cinayət Məhkəməsinin onun və İsrailin Baş naziri Benyamin Netanyahu haqqında həbs qərarı çıxarmasından sonra ilk xaricə səfəri olacaq. Ekspertlərin fikrincə, onun ABŞ-yə səfəri məhz bu faktla bağlıdır, çünki Qallant həbs oluna biləcəyindən ehtiyat edir.

**Ankara Universitetinin professoru Toğrul İsmayıl "Şərq"ə deyib ki, Beynəlxalq Cinayət Məhkəməsinin İsrailin Baş naziri Benyamin Netanyahu haqqındakı qərarı doğrudur. Professorun sözlərinə görə, Netanyahu beynəlxalq qərarlara zidd hərəkət edir:** "İlk başda HƏMAS-la terrorla mübarizə adı ilə başlatdığı mübarizə ciddi müharibəyə çevrildi və Fələstin xalqının qətliamına kimi gəlib çıxdı. Hazırda işğal və mülki şəxslərin qətliamı davam etməkdədir. İsrail sadəcə Qəzza ilə kifayətlənmədi, əlavə olaraq Livana da hərbi müdaxilə etdi və Hizbullahla savaşdığını açıqladı. Əslində, terrorla mübarizə vacib məsələdir. Amma bu şəkildə olmaz. Terrorla, terrorçularla mübarizə sivil xalqın həyatını təhlükəyə atmamalıdır. Əks halda mülki insanların qətliamı qaçılmaz olur. Dünyanın bir çox ölkəsi, Qərb dövlətləri BCM-nin həbs qərarını dəstəklədi. Buna qarşı çıxan ABŞ-dir. Onsuz da ABŞ-İsrail münasibətləri hamıya bəllidir. Amerika hər zaman Yaxın Şərqdə İsraildən istifadə etməyə çalışıb. Bir neçə Avropa ölkəsi, o cümlədən Almaniya Holokosta görə İsrailin hər addımını doğru sayaraq, əslində. yanlış siyasət aparırlar. Avropa Birliyi içərisində Netanyahuya qarşı çıxanlar çoxdur".

**T.İsmayıl vurğulayıb ki, ümumən, gərginliyin zəifləmə ehtimalı olsa da, savaş yaxın zamanda bitəcək kimi görünmür:** "İsrail istədiyini əldə edə bilmədi. HƏMAS-la mübarizə yekun nəticə olmadı. Artıq İsrail cəmiyyətində də mənfi reaksiyalar artmaqdadır. Amma Netanyahu özünü qorumaq üçün prosesi uzada bilər. Netanyahuya qarşı İsrail daxilində də müəyyən iddialar gündəmdədir. Ona görə də müəyyən bazarlıqlara gedərək prosesi uzatmağa çalışacaq. Ancaq təzyiqlər genişləndikcə hərbi əməliyyatların dayandırılmasına yönəlik çağırışlar artacaq".

**İsmayıl Qocayev**

# Əvvəla geniş təhlil aparılmalıdır

## Məktəblərin bağlanması çox həssas məsələdir

**Millət vəkili deputat Ceyhun Məmmədov 2025-ci il üçün büdcə zərfinin müzakirəsi zamanı bağlanma təhlükəsi ilə üz-üzə olan məktəblərin bağlanmasının əleyhinə olduğunu bildirib: "Rəsmi rəqəmlərə görə, təxminən 4400 məktəbdən 1500-nün bağlanması planlaşdırılır. Vəsaitin lazım olduğunu başa düşürəm, amma məktəblərin bağlanması o ərazilərin boşalmasına gətirib çıxaracaq".**

Deputat, həmçinin bölgələrdə yeni iş yerlərinin açılması məsələsinə də daha çox diqqət ayrılmasını təklif edib: "Bölgələrdən müraciətlərin çoxu iş və ya maddi dəstəklə bağlı olur".

Xatırladaq ki, bir neçə gün əvvəl elm və təhsil naziri Emin Əmrullayev bəzi məktəblərin komplektləşdiriləcəyini bildirib: "Rasionallaşmaya ehtiyac var, ağrılı proses olsa da, biz buna getməliyik".

Əslində, şagirdlərin sayı az olan məktəblər və siniflərin, habelə şagird sıxlığı müşahidə olunan məktəblər və siniflərin mövcudluğu, bəzi regionlarda müəllim çatışmazlığının, bəzi regionlarda isə müəllim artıqlığının müşahidə olunması nə dünənin, nə də bu günün problemidir. Bu, uzun illərdən bəri optimal həllini gözləyən vacib məsələlərdən biri kimi daim gündəmdə saxlanılıb. Zaman-zaman ümumi təhsil müəssisələrinin şəbəkəsinin rasionallaşdırılması istiqamətində xüsusi proqramlar da hazırlanıb. Lakin bölgə məktəblərindəki vəziyyətin düzəlməsi istiqamətində konkret addımlar atılmayıb. İndi də çıxış yolunu şagird sayı az olan məktəbləri birdəfəlik bağlamaqda görürlər. Maraqlıdır, məktəblər bağlansa, həmin kənddə yaşayan uşaqların təhsili necə olacaq? Payızın yağışında, palçığında, qışın qarında, çovğununda bir kənddən kilometrlərlə məsafə qət edib qonşu kəndin məktəbinə gedən uşaqların hansı əziyyətlərə qatlaşacağını təsəvvür etmək elə də çətin deyil.

Az şagirdi olan məktəblərin böyük məktəblərə birləşdirilməsi, sonra şagirdlərin avtobuslarla daşınması kimi məsələlər müzakirə predmeti olsa da, bu layihələrin özünü doğruldacağı şübhə doğurur.

Üstəlik, deputatın qeyd etdiyi kimi. hansısa ucqar rayonun bir neçə kəndindəki az şagirdi olan məktəbi birləşdirmək həmin kəndlərdən şəhərlərə axını - urbanizasiya prosesini gücləndirəcək. Onsuz da insanlara kənddən qaçmaq üçün bir bəhanə lazımdır. Məktəblərin bağlanmasında onlara kifayət qədər əsaslı səbəbdir.




Bu proses yalnız təhsil məsələsi deyil, həm də sosial, iqtisadi və demoqrafik problemlər yarada bilər

**ADPU-nun Təhsildə Təhlil və Kommunikasiyalar Mərkəzinin direktoru Kamran Əsədov isə "Şərq"ə açıqlamasında deyib ki, məktəblərin bağlanması yalnız təhsil məsələsi deyil, həm də sosial, iqtisadi və demoqrafik problemlər yarada bilər. Bu məsələni yalnız bir istiqamətdən deyil, bütün tərəflərdən təhlil etmək və optimal həll yollarını müəyyənləşdirmək lazımdır:**

"Azərbaycanda əhali sayı artmasına baxmayaraq, bəzi regionlarda şagirdlərin sayı azalır. Bu, əsasən miqrasiya və aşağı doğum səviyyəsi ilə əlaqələndirilir. Xüsusilə kənd yerlərində yaşayan əhali daha çox şəhərlərə və ya xaricə köç edir. Belə hallarda həmin kəndlərdə şagird sayı azalır və məktəblər fəaliyyətini davam etdirməkdə çətinlik çəkir. Təhsil sistemində məktəblərin bağlanması və ya birləşdirilməsi problemi yalnız Azərbaycanda deyil, dünya ölkələrində də rast gəlinən bir vəziyyətdir. Lakin bu cür dəyişikliklərin tətbiqində ən vacib məqam prosesin planlı və balanslı şəkildə həyata keçirilməsidir.

Şagird sayının azalması səbəbindən məktəblərin bağlanması bəzi üstünlüklər təqdim edə bilər. Məsələn, az şagirdi olan məktəblərin fəaliyyətini davam etdirməsi büdcə üçün əlavə yük yaradır. Resursların konsolidasiyası isə daha keyfiyyətli təhsil mühitinin yaradılmasına kömək edə bilər. Lakin bu qərar eyni zamanda çox ciddi risklər daşıyır. Məktəblərin bağlanması həmin ərazilərdə təhsil imkanlarının məhdudlaşmasına səbəb ola bilər. Uzaq məsafələrə görə bəzi şagirdlər məktəbə getməkdən imtina edə bilər ki, bu da erkən təhsildən yayınma hallarının artmasına gətirib çıxarar. Bu, xüsusilə maddi çətinliklər yaşayan ailələrin uşaqları üçün aktualdır.

Digər tərəfdən, məktəblərin bağlanması müəllimlərin işsiz qalması problemini ortaya çıxarır. Təhsil müəssisələrinin bağlanması ilə həmin məktəblərdə işləyən müəllimlər iş yerlərini itirə bilər. Bu isə regionlarda müəllimlərin sayının azalmasına, nəticədə təhsil keyfiyyətinin daha da aşağı düşməsinə gətirib çıxara bilər. Müəllimlərin yenidən işlə təmin olunması üçün mexanizmlərin yaradılması bu prosesin ən vacib hissələrindən biridir".

**K.Əsədovun sözlərinə görə, bu problemin həlli yollarını müəyyənləşdirmək üçün bir neçə mühüm addım atıla bilər. İlk növbədə, məktəblərin bağlanması qərarı yalnız təhsil sahəsində deyil, həm də sosial-iqtisadi kontekstdə nəzərdən keçirilməlidir**: "Bu qərarın mümkün nəticələri geniş şəkildə təhlil edilməli və hər bir ərazi üçün fərdi həllər tətbiq olunmalıdır. Məsələn, az şagirdi olan məktəblərin bağlanması yerinə onların daha böyük məktəblərlə birləşdirilməsi mümkündür. Bunun üçün isə şagirdlərin təhlükəsiz daşınması mexanizmi yaradılmalıdır. Daşınma prosesi zamanı onların rahatlığı, təhlükəsizliyi və vaxt itkisi minimuma endirilməlidir.

Bununla yanaşı, bağlanacaq məktəblərin müəllimləri üçün alternativ iş yerləri təklif edilməli və ya onların başqa təhsil müəssisələrinə keçməsi üçün şərait yaradılmalıdır. Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması üçün xüsusi təlim proqramları tətbiq olunaraq onların yeni vəzifələrə uyğunlaşması təmin edilməlidir. Bu həm də təhsil sistemində keyfiyyətin artmasına səbəb ola bilər.

Az şagirdi olan məktəblərin fəaliyyətini davam etdirməsi büdcə üçün əlavə yük yarada bilər, lakin bu məsələyə yalnız iqtisadi deyil, həm də sosial və strateji baxımdan yanaşmaq lazımdır. Məktəbin bağlanması o ərazinin boşalmasına və insanların həmin yerləri tərk etməsinə gətirib çıxara bilər. Məktəblər yalnız təhsil müəssisəsi deyil, həm də cəmiyyətin mərkəzidir. Onların bağlanması həmin regionlarda həyat səviyyəsinin aşağı düşməsi ilə nəticələnə bilər. Bu səbəbdən, məktəblərin bağlanması əvəzinə, onların modernləşdirilməsi və yeni funksiyaların əlavə olunması təklif edilə bilər. Məsələn, məktəblər həm də mədəniyyət, peşə təhsili və ictimai fəaliyyət mərkəzi kimi fəaliyyət göstərə bilər.

Son olaraq, bu cür dəyişikliklər zamanı ictimaiyyətin iştirakı və dəstəyi vacibdir. Məktəblərin bağlanması və ya birləşdirilməsi qərarları valideynlər, müəllimlər və yerli icmalarla məsləhətləşərək həyata keçirilməlidir. Bu, qərarların daha geniş şəkildə qəbul edilməsinə və potensial narazılıqların qarşısının alınmasına kömək edəcək. Prosesin şəffaf və ədalətli aparılması təhsil sisteminin inkişafı üçün vacib şərtdir.

Bütövlükdə, məktəblərin bağlanması və ya birləşdirilməsi məsələsi həssas yanaşma tələb edir. Bu qərarın qəbulunda yalnız iqtisadi səbəbləri deyil, həm də təhsil keyfiyyətinə və sosial-iqtisadi mühitə təsirləri nəzərə alınmalıdır. Məktəblər yalnız təhsil müəssisəsi deyil, həm də cəmiyyətin formalaşmasında mühüm rol oynayan mərkəzlərdir. Onların bağlanması ilə əlaqədar qərarlar balanslı və cəmiyyətin maraqlarına uyğun şəkildə qəbul edilməlidir".

**Şəymən Bayramova**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# 16 gün ərzində çox iş görmək olar

## Öncə zorakılığın müəyyən edilməsi çox əhəmiyyətlidir





**Qadınlara Qarşı Zorakılıqla Beynəlxalq Mübarizə Günü ilə bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi BMT Azərbaycan ilə birlikdə ”Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyasına start verib. Kampaniya 25 noyabrdan 10 dekabr Beynəlxalq İnsan Hüquqları Gününədək davam edəcək.**

Kampaniyanın başlanması ilə əlaqədar Dövlət Komitəsinin sədri Bahar Muradova videomüraciət ünvanlayıb. Komitə sədri videomüraciətində qadınlara qarşı hər növ zorakılığın qarşısının alınmasında həmrəyliyə çağırış edib. Kampaniyanın əsas məqsədi qadınlara qarşı törədilən zorakılığın insan hüquqlarının kobud pozulması kimi təbliği istiqamətində yerli, milli, regional və beynəlxalq səviyyədə maarifləndirmə işinin aparılmasıdır. Hər il kampaniya çərçivəsində müxtəlif formatda tədbirlər həyata keçirilir, dünya ictimaiyyətinə qadınlara və qızlara qarşı zorakılığın qarşısını almaq və aradan qaldırmaq çağırışı edilir: ”Dəyərli həmvətənlər, bu gün bütün dünyada və Azərbaycanda ”Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq” kampaniyasına start verilir. Hər il noyabrın 25-də - ”Qadınlara Qarşı Zorakılıqla Beynəlxalq Mübarizə Günü”ndə başlayıb dekabrın 10-u - ”Beynəlxalq İnsan Hüquqları Günü”ndə başa çatan kampaniya ərzində bütün tərəfdaşlarımızı, bütövlükdə, cəmiyyəti bu fenomenlə qətiyyətli mübarizə aparmağa səsləyirik. Çünki bu qlobal problem yalnız fərdlərə deyil, ailələrə və cəmiyyətimizə ciddi mənfi təsirlər göstərir, onun inkişaf və tərəqqisini sarsıdır. Zərərçəkənlərin bütün proseslərdə tamhüquqlu iştirakına maneələr yaradır, şərəfli və təhlükəsiz həyat sürmək hüququnu pozur. Qadınlara və qızlara qarşı zorakılıq ciddi iqtisadi və sosial problemlərə yol açmaqla milli iqtisadiyyata da zərbə vurur, ictimai sağlamlığın təmin olunmasını əhəmiyyətli dərəcədə ləngidir. Azərbaycan Respublikası ölkədə qadın hüquqlarının müdafiəsi ilə bağlı mühüm nailiyyətlər əldə edib, bütün hüquqi normativ çərçivədə səmərəli icra mexanizmləri yaradıb. Lakin hüquqların qorunması üçün yalnız hüquqi tədbirlər deyil, eyni zamanda ictimai dəstək və həmrəylik də vacibdir. Biz hamılıqla patriarxal davranış normaları və selektiv münasibəti sındıra, ənənəvi gender stereotiplərini müsbət düşüncə tərzinə transformasiya edə, qadın və qızları səlahiyyətləndirərək diqqətimizi daha yaxşı bir dünya qurmaq naminə işə yönəldə bilərik. Gəlin, 16 günlük fəaliyyət kampaniyası çərçivəsində güclərimizi birləşdirək, zorakılığa qarşı sıfır dözümlülük sərgiləyərək, hamı üçün daha ədalətli bir gələcək uğrunda birlikdə mübarizə aparaq”.

Qeyd edək ki, BMT-nin Baş Assambleyası 1999-cu ildə noyabrın 25-ni Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günü elan edib. Qadın Zorakılığına Qarşı Mübarizə Gününün məhz 25 noyabrda qeyd edilməsi təsadüfi deyil. Bu, 1961-ci ildə Dominikan Respublikasında baş verən hadisədən qaynaqlanır. Həmin vaxt Dominikan Prezidenti Rafael Truxilonun əmri ilə siyasi fəallardan olan 3 tibb bacısı vəhşicəsinə öldürülüb. Qadınların zorakılığa qarşı mübarizə simvolları ağ lentdir. Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günü ilə bağlı BMT-nin müraciətində bildirilirdi ki, qadınlara qarşı zorakılıqdan qadınlarla bərabər ümumilikdə ailələr, körpələr və bütün cəmiyyət əziyyət çəkir. Zorakılıq qadınlara öz potensiallarından istifadə etməyə icazə vermir, iqtisadi inkişafı məhdudlaşdırır. BMT cəmiyyətin bu problemə diqqətini cəlb etmək üçün noyabrın 25-də hökumətlərə, beynəlxalq təşkilatlara və QHT-lərə tədbirlər keçirməyi təklif edir.

Ölkəmizdə hər il noyabrın 25-i Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günü kimi qeyd edilir. İstər Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi, dövlət strukturları, istərsə də ictimai təşkilatlar tərəfindən xüsusi tədbirlər keçirilir, ictimaiyyət qadınlara qarşı zorakılıqla mübarizəyə təşviq edilir. Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günü ilə əlaqədar Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında məlumat bülleteni hazırlanıb. Bülletendə bu günün təsis edilməsi tarixi, məqsədi, ölkəmizdə qadınların səlahiyyətlərinin artırılmasına, gender bərabərliyinin təminatına, qadın siyasətinin həyata keçirilməsinə, Azərbaycanda qadınların rolunun artırılmasına dair qəbul olunan rəsmi sənədlərin tam mətni təqdim edilib. Ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsinin və dövlət səviyyəsinə qaldırılmasının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olması tarixi faktı, qadın hüquqlarının müdafiəsinin, onlar üçün yaradılan imkanların genişləndirilməsinin dövlət siyasətinin əsas prioritet istiqamətlərdən biri olması haqda məlumat verilib, cəmiyyətimizdə qadınların rolu, şərəfli missiyası mövzusunda görkəmli şəxslərin söylədikləri dəyərli fikirlər də yer alıb. Nəsimi Rayon İcra Hakimiyyətində də Qadın zorakılığına qarşı beynəlxalq mübarizə günü ilə bağlı ”Qadınlara qarşı zorakılığa yox deyək!” mövzusunda tədbir keçirilib. Tədbirdə Nəsimi Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zahid Xəlilov ailə və cəmiyyətin ictimai həyatında qadınların rolundan danışıb. Bildirib ki, Azərbaycanda insan hüquqları, xüsusilə də qadın hüquqlarının müdafiəsi istiqamətində sistemli siyasət həyata keçirilir. Bu, qanunvericilikdə öz əksini tapıb. Məişət zorakılığının profilaktikasına diqqətin artırılması məqsədilə 2010-cu ildə ”Məişət zorakılığının qarşısının alınması haqqında” qanunun qəbul olunması dövlətin bu məsələyə verdiyi böyük önəmin nümunəsidir. Bununla bağlı qanunların qəbulu və müvafiq dövlət qurumlarının fəaliyyət göstərməsi ilə yanaşı bu məsələdə vətəndaş cəmiyyətinin də rolu çox böyükdür. Cəmiyyət özü də bu sahədə fəallıq göstərməli, zorakılıq hallarının baş verməməsi üçün səylərini birləşdirməlidir. Tədbirdə qadın zorakılığına qarşı mübarizə günü ilə bağlı təqdimat və çıxışlar olub, problem ətrafında fikir mübadiləsi aparılıb. H.Sarabski adına mədəniyyət evi kollektivinin təqdim etdiyi səhnəcik də maraqla izlənilib.

> “Biz qadınlar problemləri yığışıb bir masa ətrafında müzakirə etməkdən konkret və ciddi fəaliyyətə keçməliyik”

**Psixoloq Fərqanə Mehmanqızı ”Şərq”ə açıqlamasında 16 günlük fəallıq kampaniyasının lazımi səviyyədə dəyərləndirilməsinin vacib olduğunu söylədi:**

- 16 gün ərzində, əslində, çox iş görmək olar. Biz qadınlar problemləri yığışıb bir masa ətrafında müzakirə etməkdən konkret və ciddi fəaliyyətə keçməliyik. Harada qadına qarşı zorakılıq varsa, qanunvericiliyə uyğun qarşısı alınmalı və zorakılıq edənlər qanunla cəzalanmalıdır. Məncə, zorakılığın müəyyən edilməsi çox əhəmiyyətlidir. Çünki zorakılığa məruz qalmış qadınların heç də hamısı bu barədə danışmır, bildirmir, hüquq-mühafizə orqanlarına məlumat vermir. Qadınlar bir çox hallarda onlara kiminsə yardım edə biləcəyinə də inanmırlar. Ona görə ki, yardım edə biləcək orqanlar, şəxslər haqqında məlumatlı deyillər. Dövlət Komitəsinin Qaynar xətti var. Xüsusi sığınacaqlar var ki, onlara da müraciət etmək olar. Amma bəzən qadınlar bu haqda məlumatsız olur, ya da çəkinirlər, qorxurlar şikayət etməyə. ”Qadın Dəstək Xətti” fəaliyyət göstərir. Bu, ”Azercell”in təşəbbüsü ilə yaradılan xidmətdir. Böhran və sosial təhlükəli vəziyyətdə yaşayan, fiziki və ya psixi zorakılıqla üzləşən qadınlara yardım məqsədilə yaradılıb. Baxın, ”Qadın Dəstək Xətti” 2024-cü ilin yanvar-iyun ayları üzrə hesabatını açıqlayıb. Bildirilir ki, qeyd olunan dövrdə xidmətə 412 müraciət daxil olub. Müraciətlər hüquqi yardımla, boşanma, sosial-maddi rifahla bağlı da olub, 34 müraciətsə məhz məişət zorakılığı ilə bağlı olub. Qadınlar bu xidmət haqqında daha çox məlumatlı olsalar, problemlər daha effektiv həllini tapar. ”Qadın Dəstək Xətti”nin əsas məqsədi effektiv psixoloji, emosional və sosial dəstəyin təşviq edilməsi və zorakılıq qurbanlarının reabilitasiyası və cəmiyyətə reinteqrasiyasına kömək etməkdir. Müraciət edən qadınlar hüquq klinikalarına, reabilitasiya mərkəzlərinə, sığınacaqlara, hüquqi məsləhət verən QHT-lərə yönləndirilir. Sosial şəbəkələrdə aktiv olan qadınlarımız ”Qadın Dəstək Xətti”nə internet üzərindən, elektron qaydada müraciət edə bilər. Elektron poçt ünvanı, feysbuk səhifəsi də var.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Azərbaycana göstərilən təzyiqlər nəticə vermədi

## Bakı COP29-la iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu

**Paytaxtımızın ev sahibliyi etdiyi qlobal iqlim dəyişikliyi ilə mübarizənin ən böyük tədbiri sayılan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29) yüksək səviyyədə baş tutdu, uğurla başa çatdı. Fransa kimi şərə xidmət edən ölkələrin təxribat və qarayaxma kampaniyalarına baxmayaraq.**

100-ə yaxın dövlət, hökumət və parlament rəhbərləri, 70 mindən çox qonaq COP29 tədbirinin əhəmiyyətini və Azərbaycanın yüksək təşkilatçılıq bacarığını nəzərə alaraq qlobal iqlim dəyişikliyi ilə mübarizə üçün Bakıda bir araya gəldilər, bəşəriyyət üçün aktual məsələləri geniş şəkildə müzakirə etdilər, yeni strategiya və qərarlar qəbul etdilər. Bu baxımdan, Prezident İlham Əliyevin ”X” platformasındakı hesabında COP29-un nəticələrinə həsr olunmuş paylaşımında qeyd etdiyi kimi, COP29 iqlim diplomatiyasında həqiqətən də, böyük dönüş nöqtəsidir.

**Azərbaycan Həmrəylik Komitəsinin sədri Əlisahib Hüseynov isə ”Şərq”ə açıqlamasında deyib ki, COP bütün insanlığın gələcək taleyinin həll olunduğu mühüm platformadır. Onun sözlərinə görə, Bakı COP-unda qəbul edilən mühüm qərarlar bu platformanın dünya birliyi üçün nə qədər önəmli olduğunu göstərdi:** ”Dövlətimizin başçısının vurğuladığı kimi, bu gün biz mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək: ”Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu. ”Yaşıl dünya naminə həmrəylik” şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı”. Belə bir mötəbər tədbirin ölkəmizdə keçirilməsi sözsüz ki, dövlətimizin gücünün, nüfuzunun və uğurlu diplomatiyasının nəticəsidir. 12-13 gün ərzində bir çox fərqli platformalarda görüşlər təşkil olundu, iqlimlə əlaqədar panellərdə qlobal problemlər və onlardan çıxış yolları müzakirə edildi. COP29 çərçivəsində ilk dəfə olaraq Su üzrə İqlim Fəaliyyəti Bəyannaməsi qəbul olundu, İtki və Zərər Fondu tam işlək vəziyyətə gətirildi. Həmçinin karbon bazarına dair çoxdan gözlənilən 6-cı maddənin tam işlək vəziyyətə gətirilməsinə nail olundu. Və ən əsası isə, Bakı COP-unda 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya yeni qlobal məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Məqsədi (NCQG) təsdiqləndi. Bu razılaşma inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə əhəmiyyətli dərəcədə kömək edəcək.




Bu mənada BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stillin Azərbaycana iqlim maliyyələşdirilməsi sahəsində çətin hədəfə uğurla nail olduğu üçün təşəkkür etməsi heç də təsadüfi deyil. Saymon Still COP29-un yekun plenar sessiyasında bildirib ki, ”bu, çətin yol idi, amma biz müəyyən edilən məqsədə çatdıq. Bu yeni maliyyə hədəfi, hər bir ölkəyə artan iqlim təsirləri şəraitində bəşəriyyət üçün sığorta polisidir. Bu qərar bütün ölkələrə iş yerləri yaratmağa, daha sürətli iqtisadi inkişafı təmin etməyə, hamı üçün daha ucuz və təmiz enerjinin əldə olunmasına kömək etməklə təmiz enerji bumunun artmasına kömək edəcək. Bu, iqlim böhranının ön cəbhəsində olanlar, xüsusən də ən həssas olanlar üçün real müdafiə tədbirlərini maliyyələşdirməyə kömək edəcək. COP29 eləcə də karbon bazarları üzrə qlobal razılaşmaya nail olub, bu sahədə onilliklər boyu davam edən gərgin işin nəticəsində, bir neçə əvvəlki COP-un bunu əldə edə bilmədiyi bir dövrü geridə qoydu.

Belə yüksək nəticələr heç şübhəsiz ki, Fransa kimi bədxahlarımızı qıcıqlandırır. Çünki COP29 başlamazdan öncə Makron Fransasının təşviqi ilə bəzi Qərb KİV-də bu tədbirdə heç bir nəticənin əldə olunmayacağı və tədbirin böyük uğursuzluqla nəticələnəcəyi yönündə iddialar tirajlanırdı. Almaniya XİN başçısının Azərbaycana qarşı isterik ittihamları da təsadüfi deyildi”.

Anti-Azərbaycan qüvvələrin bütün bu gözləntiləri və qərəzli təxminlərinin puç olduğunu vurğulayan politoloq deyib ki, Azərbaycan Prezidentinin siyasi iradəsi və COP29 Sədrliyinin yüksək təşkilatçılığı COP29-da aparılan müzakirələrin qlobal iqlim dəyişikliyi ilə mübarizədə həqiqətən də. ciddi dönüş əldə edilməsində mühüm rol oynadı: ”COP29-un nəticələrini böyük əminliklə tarixi nəticələr kimi dəyərləndirə bilərik. Dövlət başçısı da ”X” hesabındakı sözügedən paylaşımında Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirdi.

COP29-un yüksək səviyyədə baş tutması Azərbaycanın dünyadakı nüfuzunu daha da artırdı. Bakıdakı qlobal İqlim Sammitində iştirak edən ölkələrin liderləri və ekspertləri Azərbaycanın təşkilatçılığını və nəticəyönümlü fəaliyyətini yüksək qiymətləndirir, həlledici qərarların qəbul edilməsində Bakının səylərindən məmnun olduqlarını bildirirlər. Hamı gördü ki, Azərbaycan COP29-un ev sahibi və sədri kimi bu tədbirin sonunda yüksək nəticələrin əldə edilməsi üçün gerçəkdən də tam məsuliyyətli və vicdanlı vasitəçi kimi çıxış etdi. Məhz bunun nəticəsidir ki, COP29 qlobal iqlim fəaliyyətinin tarixində ”Bakı sıçrayışı” kimi, ”Bakı dönüşü” kimi iz buraxdı. COP29-un baş tutmasına mane olmağa çalışan, boykot çağırışları edən qüvvələr də bir daha gördülər ki, Azərbaycan COP29 kimi mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi etməyi bacarır.

Əlbəttə, bundan əvvəlki illərdə də paytaxtımızda bir sıra mühüm beynəlxalq tədbirlər uğurla keçirilmişdi. Lakin bu həcmdə meqa-tədbirə ilk dəfə idi ki, ev sahibliyi edirdik. Bu tədbir ölkəmiz üçün sözün əsl mənasında böyük sınaq idi”.

**Ə.Hüseynov hesab edir ki, Azərbaycan bütün dünyaya örnək ola biləcək yüksək təşkilatçılığı ilə öz potensialını, gücünü, liderlik bacarığını nümayiş etdirdi:** ”COP29 əvvəlki COP-lardan nəticəyönümlülüyü ilə, səmərəliliyi ilə yadda qaldı. Ev sahibi və sədr ölkə kimi Azərbaycana göstərilən təzyiqlər və Qərbin aparıcı dövlətlərinin iqlim maliyyələşməsi üzrə öhdəliklərindən qaçmağa çalışmaq cəhdləri isə heç bir nəticə vermədi. Öz sənaye qazları və kimyəvi tullantıları ilə dünyanı zəhərləyən və qlobal iqlim fəlakətlərinə yol açan Qərb ölkələri 300 milyard dollarlıq iqlim maliyyələşməsi üçün öhdəlik götürməyə məcbur oldular. Bakı COP-u inkişaf etmiş sənaye ölkələrini inkişaf etməkdə olan ölkələr qarşısında məsuliyyətlərini dərk etməyə çağırdı. Beləliklə, iqlim dəyişikliklərinə ən çox zərər vuran inkişaf etmiş Qərb ölkələri iqlim maliyyəsinin ödənilməsindən yayınmağa müvəffəq ola bilmədilər. Bu isə COP29-a sədrlik edən tərəf kimi, həqiqətən də, ölkəmizin ciddi uğurudur. Azərbaycan iqlim lideri kimi öz iradəsini böyük dövlətlərə qəbul etdirməyi bacardı. COP29 ölkəmizin qlobal iqlim siyasətindəki rolunu artırmaqla yanaşı, onu iqlim dəyişikliklərinə qarşı mübarizədə aparıcı ölkəyə çevirdi. Bakıda keçirilən İqlim Sammiti yüksək həmrəylik və səmərəliliyinə görə ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək”.

**Şəymən Bayramova**

# Heç kim düşünməsin ki...

## ...Sülh müqaviləsi imzalansa, ermənilərin bizə qarşı düşmənçiliyi, ədavəti də bitəcək

**Gürcüstan vətəndaşı olan azərbaycanlı ictimai fəal Samirə Bayramova Ermənistana buraxılmayıb. O, bu barədə X hesabında paylaşımında bildirib.** Varşava-Tbilisi reysi ilə uçan təyyarə əlverişsiz hava şəraiti ilə əlaqədar İrəvana məcburi eniş edib. Lakin digər sərnişinlərdən fərqli olaraq S.Bayramovanı Ermənistana buraxmayıblar: ”Məni Gürcüstan vətəndaşı kimi ölkəyə buraxmadılar. ”Milli kimliyiniz problemdir” dedilər. Niyə bu münaqişənin bir parçası olmalıyıq? Bu, demokratikliyə yaraşmaz, Nikol Paşinyan”.

**VHP Ali Məclisinin sədri Felmar Ələkbərli ”Şərq”ə açıqlamasında deyib ki, Ermənistan hakimiyyəti bir tərəfdən Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsi üzrə danışıqlar aparır. Digər tərəfdən isə qeyri-konstruktiv mövqe tutur, prosesi poza biləcək əməllərə imza atır:** ”Bu son hadisə də bu qəbildəndir. Ermənistanın danışıqlar prosesini pozmaq istəyinin daha bir nümunəsi müxtəlif ölkələrdən böyük həcmdə silah-sursat almasıdır. Bundan əlavə, rəsmi İrəvan Haaqada yerləşən Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ədalət Məhkəməsində (BƏM) də Azərbaycana qarşı hüquqi müstəvidə iddiasını davam etdirir. Bütün bunlar onu göstərir ki, ermənilər hələ də bizə bütövlükdə türk dünyasına qarşı düşmənçiliklərini davam etdirirlər. Onlar heç zaman işğalçı niyyətlərindən əl çəkməyəcəklər. Bizə qarşı soyqırımlar törətmək üçün yenidən tarixi məqam gözləyəcəklər. 1905-1906, 1918, 1948-1952-ci illərdə, eləcə də, 1980-ci illərin sonundan başlayaraq 1993-cü ilə qədər millətimizin başına hansı oyunlar gətirildi!?”.

**Partiya təmsilçisi qeyd edib ki, heç kim düşünməsin ki, sülh müqaviləsi imzalansa, ermənilərin bizə qarşı düşmənçiliyi, ədavəti də bitəcək:** ”Bəs biz nə etməliyik? Əlbəttə, Ermənistanla sülh müqaviləsini imzalamalıyıq. Sülh müqaviləsində bütün məqamlar nəzərə alınmalıdır və alınacaq. Bununla bağlı diplomatik müstəvidə mühüm işlər gedir. Bizim edə biləcəyimiz bütün məsələlər müqavilədə öz əksini tapacaq. Biz sülh müqaviləsini imzalayacağıq, amma problemlər də həll olunmayacaq. Biz ilk olaraq, ermənilərin bizə qarşı elədiklərini unutmamalıyıq”.

**İsmayıl**



# İvanişvili komandasının şansını dəyərləndirir

## Zurabişvilinin yenidən seçilmə ehtimalı çox aşağıdır

**"Gürcü arzusu"nun deputatları prezident seçkilərinin dekabrın 14-nə təyin edilməsi ilə bağlı qətnamə layihəsini dəstəkləyiblər. Gürcü KİV-nə istinadən xəbər verir ki, iclasda iştirak edən 80 deputatın hamısı "lehinə" səs verib, əleyhinə səs verən olmayıb.**

Qərara əsasən, prezidentin andiçmə mərasimi dekabrın 29-da baş tutacaq.

Qanuna görə, prezident seçkiləri parlamentin ilk iclasından sonra 45 gün ərzində keçirilməlidir.

Parlamentin spikeri Şalva Papuaşvili bu tələsikliyi konstitusiyanın mətni ilə izah edib. Onun sözlərinə görə, prezidentin 5 il müddətinə seçilməsi üçün həm seçkilərin, həm də andiçmə mərasiminin bu il baş tutması vacibdir. Əks halda bu müddət 6 il olacaq.

Bu arada "Gürcü Arzusu" Partiyasının icraçı katibi, deputat Mamuka Mdinaradze deyib ki, hakimiyyətdə olan partiya "99 faiz" namizədlə bağlı qərar verib. Onun sözlərinə görə, komanda qərar verib ki, bu, "gürcü ürəkli və ruhlu" şəxs olmalıdır.

Eyni zamanda Mdinaradze partiyalarının təsisçisi fəxri sədri Bidzina İvanişvilinin prezident kürsüsünə iddia edəcəyini istisna edib.

"Mtavari" telekanalı xəbər verib ki, hakim partiya iki nəfər arasından prezidentliyə namizəd seçib. Bu, partiyanın sədri, keçmiş baş nazir İrakli Qaribaşvili və Gürcüstanın birinci Prezidenti Zviad Qamsaxurdiyanın oğlu, bu yaxınlarda Milli Parlament Kitabxanasına rəhbərlik edən Konstantin Qamsaxurdiyadır.

2018-ci ildə Salome Zurabişvili Gürcüstanın beşinci və sonuncu birbaşa seçilmiş prezidenti olub. Onun səlahiyyət müddəti dekabrın 16-da başa çatır.

Gürcüstanın yeni prezidenti ilk dəfə olaraq 300 nəfərdən ibarət kollegiya tərəfindən seçiləcək. Bunlar yeni parlamentin 150 deputatı və 150 regional nümayəndədir.

**Gürcüstan parlamentində baş verən prosesləri şərh edən siyasi şərhçi Vasif Əfəndiyev isə "Şərq"ə açıqlamasında deyib ki, rusiyalı milyarder İvanişvilinin komandası parlamentdə səs çoxluğuna sahib olaraq dünən 89 deputatı tələsik toplayaraq 150 deputatın adından prezident seçkilərinin vaxtını təyin ediblər:** "Məlumdur ki, fəaliyyətdə olan Prezident Salome Zurabişvili seçkilərin nəticələrini tanımayıb və konstitusiya məhkəməsinə müraciət edib. Belə olan təqdirdə parlament iclasının keçirilməsi legitim sayılmaya bilər. Prezident Zurabişvili başda olmaqla digər 61 millət vəkili parlament iclasını boykot ediblər. Müxalifət indiki parlamenti tanımadan imtina edərək alternativ parlament yaradıb. Dekabr ayının 14-ə qədər Tbilisidə gərgin günlər yaşanacaq. Mixail Saakaşvilini dəstəkləyən "Birlik" Partiyasının seçilmiş millət vəkilləri mandatdan imtina ediblər. Bu addımı digər təşkilatların da atacağı gözlənilir".

> "Hökumət öz adamlarından birini prezident seçəcək və ölkədə vəziyyət normallaşacaq"

**V.Əfəndiyevin sözlərinə görə, parlamentin 46 faizinin iclaslara qatılmaması ciddi məsələdir və irəlidə təkrar seçkilərin keçirilməsi gözlənilir:** "Hazırkı vəziyyətdə "Gürcü arzusu"nun namizədi eks baş nazir İrakli Qaribaşvilidir. Ona müxalif olunan eks Prezident Zviad Qamsaxurdiyanın oğlunun adı hallandırılır. Hər bir halda prezident seçkiləri baş tutarsa, İvanişvilinin namizədi parlament deputatlarının və regiondan seçilmiş daha 150 nümayəndənin səsi ilə seçiləcək".

Siyasi ekspert Məhəmməd Əsədullazadə də Gürcüstanda keçirilən parlament seçkilərində hakim "Gürcü Arzusu" Partiyasının qalib gəldiyini, lakin Prezident Salome Zurabişvili və müxalif qüvvələr bu nəticələri tanımadıqlarını xatırladıb. Seçkidən bir gün sonra gürcü xalqını etiraz aksiyalarına səsləyən Prezidentlə hakim partiya arasındakı siyasi qarşıdurmanın davam etdiyini vurğulayan siyasi ekspert deyib ki, Gürcüstanın 11-ci çağırış parlamentinin noyabrın 25-də baş tutan ilk iclasına prezidenti çağırmadılar: "Gürcüstanda prezident səlahiyyətləri az olduğu üçün hakim partiya ilə yaşanan qarşıdurma vətəndaş qarşıdurması, xaosa səbəb olmur. Onsuz da, gözlənilən prezident seçkilərində Salome Zurabişvilinin yenidən seçilmə ehtimalı çox aşağıdır. Yəqin ki, hökumət öz adamlarından birini prezident seçəcək və ölkədə vəziyyət normallaşacaq. Bilirsiniz ki, Zurabişvilidən əvvəlki prezidentlə də hökumət arasında ciddi ziddiyyətlər yaşanırdı".

**Şəymən Bayramova**

# Zəhərlənmə hallarının olması təbiidir

## Çünki dönər satılan yerlərin əksəriyyətində gigiyenik normalar gözlənilmir

**Noyabrın 25-də saat 21:30 radələrində 3 nəfər (2-si kişi cinsli, 1-i qadın cinsli) Zaqatala Rayon Mərkəzi Xəstəxanasının Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinə hospitalizasiya olunublar.**

Bu barədə TƏBİB-dən məlumat verilib.

"Onlara dəqiqləşdirilməmiş bakterial qida zəhərlənməsi, dispepsiya diaqnozu təyin edilib və zəruri tibbi xidmətlər göstərilib. Vəziyyətləri stabil qiymətləndirilən hər üç şəxs ambulator müalicə üçün evə buraxılıb", məlumatda deyilir.

**Qida eksperti Fərid Səfərov "Şərq"ə söyləyib ki, aparılan bir elmi araşdırmada bir həftə boyunca siçovullara ancaq "fast-food" qidalar və şirin qazlı içkilər verilir:**



"Bir həftədən sonra həmin siçovullar çox rahat keçə bildikləri kiçik labirintin çıxışını tapa bilmirlər, məlum olur ki, onların beyinlərində infeksiya yaranıb, beyin hüceyrələrində dəyişiklik baş verib. Sözümün canı odur ki, cəmi bir həftə ərzində "fast-food" qida qəbulu bu cür nəticələnirsə, onda daimi bu cür qidalanmağın nəticəsini özünüz düşünün! Əslində, bu cür zəhərlənmə hallarının olması normaldır. Çünki hazırda demək olar ki, dönər satılan yerlərin əksəriyyətində heç bir gigiyenik normalar gözlənilmir, ətin haradan, necə alındığı tam aydın deyil, istifadə olunan digər ərzaqların təmizliyi və keyfiyyətinə heç kim cavabdehlik daşımır. Adından da göründüyü kimi, "tez-tələsik" yediyimiz üçün də bu cür hallarla tez-tez rastlaşırıq. Həmçinin aldığımız qidanın "zəhərli" olub-olmadığını ayırd etmək də çətindir. Bəlkə qoxusunda, görüntüsündə və dadında fərqli nəsə ilə hiss etsək, şübhələnə bilərik. Əks halda çox təəssüf ki, zəhərlənmə qaçılmazdır. Qida zəhərlənməsinin simptomları adətən 2-3 gün ərzində öz-özünə yox olur və heç bir müalicə tələb etmir. Bu dövrdə ishal və qusma nəticəsində itirilən mayenin yerini doldurmaq üçün bol su və yağsız mayelər içmək lazımdır. Qusma varsa ürəkbulanma əleyhinə dərmanlar istifadə edilə bilər. Lakin çox şiddətli maye itkisinə səbəb olacaq qusma və ishal varsa və ya simptomlar 2-3 gün ərzində keçmirsə, həkimə müraciət edilməlidir. Qida zəhərlənməsi və hətta insan ölümlərinin qarşısını almaq üçün mütləq ciddi şəkildə nəzarət edilməlidir. Eyni zamanda müəyyən tələblər qoyulmalı və normalar tətbiq olunmalıdır. Bir də ki, axı biz özümüz də düzgün seçim edə bilərik. Sağlamlığımız seçimlərimizdən asılıdır! Sağlam qidalanaraq sağlam yaşayın".

**Fidan Həmişəyeva**

# Kişilərə zorakılıq artıb

## Ailədə bilinmir kişi kimdir, qadın kim...

**"Məişət zorakılığına məruz qalan şəxslər arasında qadın və uşaqlar çoxluq təşkil edir. Cari ildə 38 kişi, 430 qadın, 364 uşaq məişət zorakılığına məruz qalıb. Məişət zorakılığı törədənlər isə tərkibinə görə 438 nəfər kişi, 213 nəfər qadındır", - məlumatda qeyd olunub.**

Qeyd olunub ki, komitəyə müraciət daxil olarkən dərhal icra olunur və müvafiq qurumlara yönləndirilir:

"Şikayətlər yerli icra hakimiyyəti orqanlarına və Daxili İşlər Nazirliyinə yönləndirilir. Yerli icra hakimiyyətlərində məişət zorakılığının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupları fəaliyyət göstərirlər. Müraciət daxil olan zaman dərhal komissiya yaradılır və ehtiyac olduqda şəxs qısamüddətli mühafizə ilə təmin olunur. Cinayət tərkibi olduğu halda isə DİN tərəfindən qeydiyyata alınır və qabaqlayıcı profilaktik tədbirlər görülür".



Hətta bəzi qadınlar həyat yoldaşını adam yerinə qoymayaraq, imkanlarından və vəzifəsindən istifadə edərək hegemonluğunu təmin etmək üçün zorakılıq tətbiq edir

**Sosioloq Elçin Bayramlı "Şərq"ə bildirib ki, son illər mənəvi deqredasiyanın nəticəsi olaraq ailə məhfumunu darmadağın, insani münasibətləri yox etdiyimiz üçün bu cür biabırçı, anormal hadisələr baş verir:** "Vaxtı ilə Azərbaycanda bu cür hallar baş vermirdi. Ancaq hazırda bu tendensiya artmaqda davam edir. Düzdür, bunların içərisində içki aludəçisi, narkoman və psixi problemi olan insanlar da var. Lakin ümumilikdə indi ailədə insanların rol və mövqe məsələləri tamamilə dəyişib. Nə qadın özünü qadın kimi, nə də ki kişi özünü kişi kimi aparır. Yəni ailədə bilinmir kişi kimdir, qadın kimdir. Açıq şəkildə hər bir şeyə tüpürmüşük. Adını da "Müasirlik və avropalaşmış" qoymuşuq. Ona görə də son dövrlər ailədaxili münaqişələrin və zorakılığın artması halları baş verir. Bunların içərisində də kişilərə qarşı zorakılıq faktları var. Bəzi ailələrdə qadın həddən artıq aqressiv, gərgin, problemli olur. Hətta bəzi qadınlar həyat yoldaşını adam yerinə qoymayaraq, imkanlarından və vəzifəsindən istifadə edərək hegemonluğunu təmin etmək üçün zorakılıq tətbiq edir. Bunun əsas səbəbi isə mənəvi deqredasiya ilə bağlıdır. Belə gedişlə ailə dəyərlərimizə tüpürülməsi, arxa plana qoyulması, kişi, qadın, insanı və əxlaqi münasibətlərin pozulması kimi biabırçı halları artıracaq".

**Fidan**




# "Nar" abunəçiləri üçün "İnternet Kredit" xidmətini təqdim edib

**Sərfəli mobil operator "Nar" abunəçilərinə balanslarında yetərli məbləğ olmadığı zaman "İnternet Kredit" xidməti vasitəsilə internet paketləri sifariş vermək imkanı yaradıb. Abunəçilər *771#200#YES şifrəsini yığmaqla 200 MB və *771#800#YES şifrəsini yığmaqla 800 MB həcmində data kredit götürə bilər.**

Sifariş olunan 200 MB data kredit üçün 0.68 AZN, 800 MB data kredit üçün isə 1.88 AZN məbləğ hesablanır. Bu məbləğlər data paketi, xidmət haqqı və sorğu xərclərinin tam dəyərini özündə ehtiva edir və paketlərin ümumi dəyəri abunəçi balansını artırdığı zaman çıxılır.

Qeyd edək ki, birdən çox data kredit götürmək də mümkündür - bu zaman ümumi kredit məbləği abunəçinin mövcud limitinə əsasən dəyişir. "Nar" nömrəsinin mövcud data kredit borcunu *771#150#YES şifrəsi ilə nəzarətdə saxlamaq mümkündür.

"İnternet Kredit" xidmətindən istifadə etməzdən öncə *771#7#YES şifrəsini yığaraq nömrənizin kredit götürmək üçün uyğunluğunu yoxlayın. Həmçinin, nar.az/Narkredit səhifəsindən xidmət haqqında bütün məlumatı əldə edə bilərsiniz.



# Zelenski xanımından ayrı yaşayır

**Ukraynanın birinci xanımı Yelena Zelenskaya övladları ilə birgə yaşadığı yeri açıqlayıb.**

Bu barədə İtaliyanın "Rai" telekanalına müsahibə verən xanım Zelenskaya hazırda Kiyevdə yaşadıqlarını deyib. Bunu uşaqlarının təhlükəsizliyi məsələsi ilə bağlayan birinci xanımı bütün təfərrüatı açıqlaya bilməyəcəyini bildirib. Yelena Zelenskaya işgüzar görüşlərə, həmçinin xarici səfərlərə getsə də, övladları həmişə Kiyevdə qaldığını açıqlayıb. (Milli.Az)

O, bildirib ki, əri ilə ayrı yaşasalar da, bir-biri ilə görüşüb vaxt keçirirlər.

**Elan**

Bakı Biznes Universitetinin 3-cü kurs tələbəsi Əliyev Kənan Hafiz oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2773



**Dialoq...**

**Dəyərli oxucular! Bu fotoya ən yaxşı şəkilaltı söz yazanı yeni ildə hədiyyə gözləyir!**

Xahiş *olunur bu boş yerə "polislə babanın dialoqu"nu yazıb göndərəsiniz.*

-----------------------------------------------------------------------
-----------------------------------------------------------------------
-----------------------------------------------------------------------
---------------------------------------------------------------

**QEYD:** Bu hissəni kəsib zərfdə redaksiyaya göndərmək şərtdir.

**ÜNVAN:** "Azərbaycan Nəşriyyatı", "Şərq" qəzeti redaksiyası, 7-ci mərtəbə.



# 2025-ci il "sonun başlanğıcı" olacaq

## Baba Vanqanın gələn ilə dair öngörmələri hürküdücüdür

**Yeni il yaxınlaşdıqca, 2025-in necə keçəcəyi, hansı hadisələrlə yadda qalacağı ehtimalları da artır. XX əsrdə yaşadığı halda XXI əsrdə baş verəcəklər barədə dünyanı xəbərdar etmiş Vanqa nənənin öngörmələri isə bu gün də dünyanı heyrətdə saxlayır.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən xəbər verir ki, Balkanların Nostradamusu kimi tanınan Baba Vanqa (Vanqa nənə) 1996-cı ildə vəfat etsə də, hər il gələcəklə bağlı yeni proqnozları ortaya çıxır. Onun 2025-ci ilə dair öngörmələri isə hürküdücüdür. Baba Vanqa 2025-ci il haqqında "sonun başlanğıcı" ifadəsini işlədib. 2025-ci ilə dair proqnozları yaxşı bir şey vəd etmir. Sağlığında Baba Vanqa 2025-ci ildə Avropada fəlakətli müharibənin başlayacağını iddia edib. O, iddia edib ki, bu müharibə Rusiya-Ukrayna münaqişəsindən asılı olmayaraq başqa iki xalq arasında başlayacaq. Müharibədən sonra qitədə böyük sayda insan itkisi yaşanacaq. Baba Vanqanın ən təəccüblü proqnozlarından biri insanlıq və yadplanetlilər həyatı arasında bir növ əlaqənin qurulacağı iddiasıdır. Xüsusilə telepatiya sahəsində böyük elmi tərəqqinin olacağı və bunun yer üzündən kənar həyatla əlaqədə inqilabi bir addım olacağı bildirilir. Baba Vanqa gələn il yad canlılarla əlaqənin qurulacağını və bunun ən qəribə şəraitdə böyük idman yarışı zamanı baş verəcəyini proqnozlaşdırıb. Məşhur kahin 2025-ci ildə tibbi inqilab olacağını proqnozlaşdırır. Baba Vanqanın iddiasına görə, alimlər laboratoriyalarda insan orqanlarını istehsal edə biləcək, orqanlar uzun gözləmə siyahıları və riskli prosedurlar olmadan transplantasiyaya hazır olacaqlar. Onun 2025-ci ilə dair proqnozları qorxuludur. "Qədim vəba" xəstəliyinin 2025-ci ildə yenidən ortaya çıxacağı, dünyada narahatlıq doğurduğu iddia edilən epidemiyanın keçmişin əsas vəba epidemiyaları qədər təsirli ola biləcəyi düşünülür. Bundan başqa, 2025-ci ildə Braziliyada vulkan püskürmələrinin və şiddətli daşqınların olacağına dair öngörü də var. Bu hadisələrin ətraf mühitin məhvini artıraraq dünyaya ciddi təsir edəcəyi proqnozlaşdırılır.

**Məlahət**







# Azərbaycana 262 minlik heykəl gətirilib

## Ən bahalı heykəllər ABŞ-dan idxal edilib

**Bu ilin ilk 3 rübü ərzində Azərbaycana xarici ölkələrdən 45 ədəd heykəl gətirilib.**

Yeniavaz.com xəbər verir ki, xaricdən gətirilən heykəllərin bir ədədinin orta gömrük dəyəri 25 min 440 dollar (43 min 248 manat) olub.

Müqayisə üçün bildirək ki, ötən ilin eyni dövründə xaricdən Azərbaycana builkindən 3 dəfə az - 15 heykəl gətirilib və heykəlin bir ədədinin orta gömrük dəyəri 28 min 788 dollar (48 min 940 manat) olub.

Qeyd edək ki, bu il Azərbaycana ən çox İspaniyadan heykəl gətirilib. İspaniyadan ümumi dəyəri 52,5 min dollar olan 30 heykəl idxal edilib. Azərbaycana ən bahalı heykəllər ABŞ-dan gətirilib. Bu ilin ilk 9 ayında ABŞ-dan bir ədədinin orta gömrük dəyəri 154 min dollar (262 min manat) olan 6 ədəd heykəl idxal edilib.

# Belə qış olmamışdı

## Türkiyədə quşlar dondu



**Türkiyədə 2 gün əvvəl yağan qardan sonra Bayburt şəhəri demək olar ki buz bağlayıb.**

Milli.Az Türkiyə mətbuatına istinadən xəbər verir ki, şəhərdə qarın qalınlığı 80 sm-ə çatıb, hava şəraiti insanlar kimi heyvanlara da təsir edib. Quşlar donub.

Yerli əhali neçə ildir ki, belə qış görmədiklərini bildiriblər. Vətəndaşlar öz imkanları ilə buzlayan yolları açıblar.

*Qeyd edək ki, bir neçə gündür yağan qar səbəbindən Türkiyənin bir neçə rayonunda məktəblərdə təhsil dayanıb, yolların çox hissəsi iflic vəziyyətindədir.*

# 15-ci uşaqlarına raket adı qoyacaqlar



**Naberejnıye Çelnıdan olan ailə 15-ci övladına Rusiyanın yeni sınaqdan çıxardığı "Oreşnik" raket sisteminin şərəfinə ad qoymağı planlaşdırır.**

Bu barədə rusiya mediasına açıqlamasında körpənin valideynləri bildirib.(unikal)

Bundan əvvəl onlar 14-cü övladına Rusiya-Svyatosiya-Svyatorossiya adını qoyublar.

Qeyd edək ki, "Oreşnik" raket sisteminin mövcudluğu noyabrın 21-də Rusiya prezidenti Vladimir Putinin xalqa müraciətindən sonra məlum olub. Bu, 5,5 min km-ə qədər mənzilli, səs sürətindən 10 dəfə yüksək sürətə çata bilən orta mənzilli ballistik raketdir.

# Ötən il dünyada 85 min qadın və qız öldürülüb



**2023-cü ildə dünyada 85 minə yaxın qadın və qız cinayət qurbanı olub. Qətllərin 60 faizi ailə üzvləri tərəfindən törədilib.**

Bu rəqəmlər Birləşmiş Millətlər Təşkilatının bazar ertəsi günü açıqladığı hesabatda yer alıb. Məlumata görə, ötən il hər 10 dəqiqədə bir qadın həyat yoldaşı və ya digər ailə üzvləri tərəfindən qətlə yetirilib. Bu göstərici üzrə ən yüksək nisbət Afrikada qeydə alınıb. İkinci və üçüncü yerlərdə Şimali və Cənubi Amerika, həmçinin Okeaniya gəlir. (azərtac) BMT vurğulayır ki, qadın qətlləri ilə bağlı yeni hesabat qurbanlara adekvat dəstəyi təmin etməklə cinayətkarları məsuliyyətə cəlb edən güclü ədalət sistemlərinin qurulmasına ciddi ehtiyac olduğunu göstərir.





# Körpələr evindən yaxalandı

## Onun cəmi 2 yaşı var, əvvəl qusdu, sonra hərəkət edə bilmədi

**İngiltərənin Bournemut şəhərində yaşayan 2 yaşlı İyla-Mae və ailəsinin həyatı bir gündə alt-üst olub. Valideynləri uşağı körpələr evinə qoyub. Kiçik qız mütəmadi olaraq körpələr evinə aparılıb, gətirilib. Bir axşam evə qayıtdıqda isə onda qəribə hallar baş verib.**

Balaca qızcığazın ürəyi bulanıb, daha sonra o, qaytarmağa başlayıb. Narahat olan ana qızının adi infeksiyadan əziyyət çəkdiyini düşünüb. Ancaq cəmi dörd gün sonra, qızcığaz yuxudan oyandıqda artıq nə tərpənə, nə danışa, nə su içə bilib, yalnız ağlayıb. Kiçik qızı xəstəxanaya aparan ailə acı həqiqətlə üzləşib. "Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, müayinələr nəticəsində onların kiçik qızına serebral venoz sinus trombozu (CVST) diaqnozu qoyulub. Həkimlər tələsik onu əməliyyata aparıblar. Əməliyyatdan sonra İyla-Maeyə 6 ay müddətində qan durulaşdırıcı və qıcolma əleyhinə dərmanlar verilib və intensiv reabilitasiya prosesi başlayıb. Kiçik qızın beynindəki maye azaldıqdan sonra o, Southampton Uşaq Xəstəxanasının neyrocərrahiyyə şöbəsinə köçürülməzdən əvvəl 4 gün reanimasiya şöbəsində yatıb və 17 həftə orada qalıb. Balaca İyla-Mae bu hadisədən sonra hər şeyi sıfırdan başlamalı olub. Bədənindəki iflic bir anda aradan qalxmayıb, zamanla hərəkət qabiliyyətini qazanan kiçik qızın anası Paige Coneley: "o, hər şeyi yenidən, sıfırdan etməyi öyrənməli idi. Əməliyyatdan sonra həkimlər ona başını bir qədər idarə etməyə kömək etdilər, lakin bəzən başıaşağı düşürdü. O, hələ də yeriyə bilmir, otura və ya dayana bilmir. Özbaşına yemək yeyə bilmir, danışa bilmir və hər zaman kresloda oturmalı olurdu", söyləyib. Coneley ailəsi kiçik qızlarının başına gələnlərdən çaş-baş qalıb. Ailənin dediyinə görə, onların kiçik qızı körpələr evindən mikrob tutduqdan sonra qusmağa başlayıb və onun bu xəstəliyə həddindən artıq qusma nəticəsində yoluxduğunu düşünürlər. Bununla belə, həkimlər İyla Meyin bu xəstəliyə həddindən artıq qusma səbəb olub-olmadığını və ya xəstəliyin qusma ilə özünü göstərdiyindən əmin deyillər. Hazırda valideynləri kiçik qızına yenidən hər şeyi öyrədir və onun köhnə həyatına qayıtması üçün müxtəlif reabilitasiya mərkəzlərindən kömək alırlar.

**Uşaq Nevrologiyası Departamentinin professoru Dilara Füsun İçağasıoğlu Böyük Britaniyada ildə təxminən 100 min insandan birində rast gəlinən və xüsusilə uşaqlarda müşahidə edilən nadir insult növü olan Serebral Venöz Sinus Trombozu (CVST) haqqında naməlum təfərrüatlar təqdim edib.** D.Füsun İçağasıoğlu qeyd edib ki, CVST tromboz, ürək və damarlarda qan laxtalarının əmələ gəlməsi və bunun nəticəsində qan axınının qarşısını alan vəziyyətə verilən ümumi addır. Menengit, ensefalit, mastoidit, otit, sinüzit, baş-boyun bölgəsi infeksiyalarının hələ də Türkiyədə ən çox görülən risk faktorları arasındadır. İnfeksiyaların yanında travma, hərəkətsizlik, dərmanlar, bədənin ağır susuzluğu, qan və damar xəstəlikləri də CVST-yə səbəb olur. Bundan başqa, uşaqlarda qan laxtalanma pozğunluğuna səbəb olan bir çox irsi xəstəlik də CVST-yə səbəb olur. Həkim baş ağrısının xəstəliyin ən çox görülən əlamətləri arasında olduğunu söyləyib. Uşaqda daha əvvəl heç vaxt olmamış baş ağrısı və ya mövcud baş ağrısının günlər ərzində şiddətlənərək dözülməz hala gəlməsi CVST-nin əhəmiyyətli əlamətləridir. Əgər uşağınızda davamlı ürəkbulanma, qusma, bulanıq görmə, ürək döyüntüsü, nitq pozğunluğu, epileptik tutmalar, görmə itkisi və çaşqınlıq varsa, dərhal həkimə müraciət etməlisiniz.

**Məlahət**

# Hər gün limon yesək, fsadları olar



**Limon soyuq aylarda yada düşən meyvədir. Əgər gündə limon yesək, orqanizmimizdə nə baş verər?**

"Medicina" xəbər verir ki, endokrinoloq Yevgeniy Belousov limonda olan yüksək miqdarda C vitamininin təsirindən danışıb.

"Amma limon turşusu mədə turşuluğunu artırdığını və dişlərin emalını da dağıtdığını bilməliyik. Mədə problemi olanlara limon olmaz. Qastrit və xorası olanlara isə limon qəti olmaz.

Eləcə də limon sitrus olduğu üçün allergik reaksiya, qaşınma verə bilər. Həssas və kariyesli dişlərə limon daha da zərər verir. Amma limon immunitetə təsirlidir, qanı durulaşdırır, həzm sistemini stimullaşdırır. Həkimlər gündə 1 ədəd limondan artıq istifadə etməməyi tövsiyə edir".

# Köhnə yapon taktikasına "əlvida" deyin

## Turş portağalı baldan daha şirin edir!



**Qış aylarında meyvə-tərəvəzlərdən bol istifadə hər zaman tövsiyə edilir. Lakin bəzi meyvələr məhz turş olmaları səbəbindən çox da sevilmir.**

Payız-qış aylarında immuniteti gücləndirmək üçün məsləhət görülən nar, portağal, naringi, qreypfrut kimi meyvələr bəzən dadlı, bəzənsə aşırı dərəcədə turş ola bilir. O cümlədən C vitamini ilə zəngin olan portağal turş olduqda yeyilməsi çətinləşir. Lakin elə bir üsul var ki o, turş portağalı şirinləşdirir. "Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, yaponlar əsrlərdir ki, turş naringiləri şirinləşdirmək üçün müxtəlif üsullardan istifadə edirlər. Əcdadlarımızın istifadə etdiyi üsul isə yaponlara meydan oxuya bilər. Bunun üçün lazım olan tək şey duzdur. Məhz duz turş portağalları şirinləşdirəcək. Portağalları şirinləşdirmək üçün üzərinə bir az duz səpin. Duz meyvəyə tez nüfuz edəcək və onu şirin edəcək. İllərdir üstünlük verilən bu üsul sayəsində turş portağalları atmaq məcburiyyətində qalmayacaqsınız. Daha klassik bir dadlandırma üsulu axtarırsınızsa, şəkər tozu istifadə edə bilərsiniz. Dilimlənmiş portağalın üzərinə yüngülcə şəkər səpin və ya suyunu sıxın və şəkər əlavə edin və yaxşı qarışdırın. Unutmayın ki, şəkərin istifadəsi asan və effektiv olsa da, həddindən artıq istehlakdan qaçınmalısınız. İstifadə edə biləcəyiniz başqa bir alternativ darçındır. Darçın turş portağalın dadını yumşaldır və zəngin ətir əlavə edir. Portağalları kəsdikdən sonra toz darçın səpmək olar. Turşluğun bir qədər aradan qaldırıldığını görəcəksiniz. Bu, darçın sevənlərin sınamalı olduğu bir ləzzətdir. Duz və ya şəkərdən istifadə edərək şirinləşdirmək istəmirsinizsə, təbii üsulları seçə bilərsiniz. Banan və ya xurma təbii olaraq turş portağalın dadını yumşalda bilər. Portağalı dilimləyib üzərinə banan dilimləri və ya xurma dilimləri əlavə edə bilərsiniz. Portağal suyunu xurma püresi ilə qarışdıraraq da istehlak edə bilərsiniz. Portağalı şirinləşdirməyin başqa təsirli yolu onu qatıq və ya qaymaqla qarışdırmaqdır. Qatıq tərkibindəki probiotik tərkibi ilə həzmi dəstəkləsə də, portağallara şirin bir dad verə bilir. Bununla belə, turş qatıqlardan istifadə etməməlisiniz. Meyvə qatığı ilə qarışdıraraq və ya dilimlərə qatıq əlavə edərək istehlak edə bilərsiniz.

**Məlahət**